# Payızda ətin qiyməti yenə bahalaşacaq

Çünki heyvandarlıq üçün gərək olan örüş yerləri pambıq sahələri ilə əvəzlənib



**Payızda yeni qiymət artımı gözlənilir. Bu barədə "Şərq"ə iqtisadçı Pərviz Heydərov bildirib. İqtisadçı qeyd edib ki, payızda ətin qiyməti qalxacaq: "Bunun səbəbləri var.**

Ölkədə pambıqçılığa üstünlük verildi, bu sahəyə diqqət ayrıldı. Heyvandarlıq üçün gərək olan örüş yerlərini pambıq sahələri əvəzlədi. Kənd yerlərində insanlar heyvandarlıqla məşğul ola bilmir, çünki örüş sahələri azdır.

(səh.5)



# 60 yaşı tamam olan müəllimlərə şad xəbər

Sertifikatlaşdırmadan azad olunacaqlar

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında "Əmək Məcəlləsi" və bir sıra müvafiq qanunlara təklif edilən dəyişikliklər müzakirə edilib.

(səh.7)




# Üçəngli bayrağımız zirvədə dalğalandı

Ordumuzun xüsusi təyinatlıları Haçadağa yürüş edib

**Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Haçadağa yürüş edib.**

Bu barədə Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, Culfa rayonunun Gal kəndindən hündürlüyü 2415 metr olan Haçadağın zirvəsinə qalxan hərbi qulluqçularımız Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini yad edib, Azərbaycan Respublikasının üçəngli bayrağını dalğalandırıb və Dövlət himnimizi səsləndiriblər.

Sonda xüsusi təyinatlılar Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini tərənnüm edən lövhəni qaya üzərində bərkidiblər.

❒ № 76 (5837) 2023-cü il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 4 may 2023-cü il (cümə axşamı)



# 3 gündür sülh müzakirəsi gedir

Danışıqların dəqiq nə zaman bitəcəyi məlum deyil

**ABŞ-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında danışıqlar davam edir.**

Bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə məlumat verib.

"Bu gün artıq görüşlər başlayıb. Danışıqlar sabah da davam edəcək. Danışıqların dəqiq nə zaman bitəcəyi məlum deyil", - o deyib.

A.Hacızadənin daha əvvəl də dediyi kimi danışıqların əsas mövzusu sülh sazişidir.

# ABŞ sülh danışıqların uğurla nəticələnməsində maraqlıdır



**ABŞ Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasında maraqlıdır.**

Bunu ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan Azərbaycan xarici işlər naziri Ceyhun Bayramovla görüşdə deyib.

O, bölgədə sülh və sabitliyin təmin olunmasında, sülh sazişi üzrə danışıqların uğurla nəticələnməsində ABŞ tərəfinin maraqlı olduğunu bildirib.

*Qeyd edək ki, əsas müzakirələrin Azərbaycanla Ermənistan arasında normallaşma prosesinə həsr olunduğu görüşdə Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da iştirak edib.*

# Prezident Şuşadan mesajlar verdi

"Üçtərəfli bəyanat atəşkəs razılaşması deyil, sülh sazişi də deyil"



**"Əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq".**

Bunu Prezident İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib. Dövlət başçısı deyib ki, tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var:

"Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq.

(səh.2)

# Azərbaycan Laçın yolundakı postu götürməyəcək

"Lentsov bu məsələyə müdaxilə etmək səlahiyyətində deyil"




**Xankəndi separatçılarının rəhbəri Araik Arutyunyan və qondarma "dövlət naziri" dünən ikinci dəfə sülhməramlıların yeni komandanı Aleksandr Lentsovla görüşüb. Lentsov onları öz qərargahında qəbul edib və Laçın yolu ilə bağlı müzakirələr aparılıb. Lentsov yaxın günlərdə Bakıya gedəcəyini və məsələ ilə bağlı danışıqlar aparacağını bildirib.**

Bu, ötən həftə təyinat alan Lentsovun Arutyunyanla 2-ci, separatçılarla 3-cü görüşüdür. Qeyd edək ki, Həkəri körpüsü üzərində sərhəd-keçid məntəqəsi qurulduqdan sonra erməni separatçılar və Ermənistan rəsmiləri (səh.2)



# Blinken: "Kremlə dron hücumunu doğrulaya bilmirəm"

**ABŞ dövlət katibi Entoni Blinken Ukrayna tərəfindən Kremlinə dron hücumu edilməsi ilə bağlı Moskvanın bəyanatlarını heç bir şəkildə doğrulaya bilmədiyini deyib.**

APA CNN-ə istinadən xəbər verir ki, Blinken fakt olmadan məsələ ilə bağlı rəy bildirməyin çətin olduğunu bildirib:

"Biz sadəcə bilmirik. Mən Kremldən gələn hər şeyə şübhə ilə yanaşardım. Biz faktların nə olduğuna baxacağıq. Faktları bilmədən məsələ ilə bağlı rəy bildirmək və ya fərziyyələr irəli sürmək olduqca çətindir", - Blinken əlavə edib.

*Qeyd edək ki, Ukrayna Moskvaya dron hücumu edilməsi ilə bağlı hər hansı bir məlumatının olmadığını bəyan edib.*

# Moskvada PUA-ların havaya qaldırılması qadağan olunub



**Bu gündən etibarən Moskvada dövlət orqanlarının qərarları ilə istifadə edilən PUA-lar istisna olmaqla, pilotsuz uçuş aparatlarının istifadəsində qadağa tətbiq edilib.**

APA-nın Rusiya bürosu xəbər verir ki, bu barədə Moskva meri Sergey Sobyanin bildirib.

"Qərar hüquq-mühafizə orqanlarının işini çətinləşdirə biləcək PUA-lardan icazəsiz istifadənin qarşısını almaq üçün qəbul edilib. Xatırladıram ki, PUA-nın icazəsiz buraxılması cinayətdir və inzibati və cinayət məsuliyyətinə səbəb olur", - deyə Sobyanin vurğulayıb.

Paytaxt Moskvanın ardınca Moskva vilayətində PUA-lardan istifadə qadağan olunub. Vilayət qubernatorunun müvafiq qərarı ilə PUA-ların uçması üçün icazələrin verilməsi qadağan olunub.

# 5 nəfər vəfat edib

46 yoluxma faktı qeydə alınıb




**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 46 yoluxma faktı qeydə alınıb, 61 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 5 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 831 min 460 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 820 min 953 nəfər müalicə olunaraq sağalıb, 10 min 250 nəfər vəfat edib. Aktiv xəstə sayı 257 nəfərdir.

*Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1471, bu günə qədər isə ümumilikdə 7 milyon 593 min 644 test icra olunub.*



# Bu yol Ermənistanı çöküşə aparır

"Zaman onların əleyhinə işləyir"

(səh.2)



# Dünya bazarlarında ajiotaj yaşanmır

"Taxıl sazişi"nin artıq bir əhəmiyyəti qalmayıb

(səh.4)

# Prezident Şuşadan mesajlar verdi

## “Üçtərəfli bəyanat atəşkəs razılaşması deyil, sülh sazişi də deyil”



**“Əgər Ermənistan sülh istəmirsə, sülh olmayacaq”. Bunu Prezident İlham Əliyev mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada keçirilən Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ”Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında bildirib. Dövlət başçısı deyib ki, tarixdən bilirik ki, sülh sazişini imzalamayan ölkələr də var:**

”Bu, nə Ermənistan, nə də region üçün yaxşı olmayacaq. Əlbəttə ki, Azərbaycan üçün də yaxşı olmayacaq. Buna görə də biz hələ də ümid edirik ki, onlar məntiqli davranacaqlar, sabiq Minsk qrupu fəaliyyətdə olanda işğal zamanı istifadə etdikləri taktikadan istifadə etməyəcəklər”.

**“28 il ərzində Minsk qrupu heç bir nəticə vermədi”**

Prezident bildirib ki, 28 il ərzində Minsk qrupu heç bir nəticə verməyib: ”Bunun əsas səbəbi isə o idi ki, Ermənistan torpaqları geri qaytarmaq istəmirdi. İşğal dövründə Minsk qrupu Azərbaycanda çox populyar olmayıb. İndi isə o artıq fəaliyyətini dayandırdığı üçün biz yəqin ki, bu məsələni dərindən müzakirə etməməliyik. Münaqişənin sülh yolu ilə həllini tapa bilməməsinin əsas səbəbi o idi, Ermənistan bunu istəmirdi”.

**“İşğal dövründə Şuşanın dağıdılması bir daha göstərir ki, o, heç vaxt ermənilər üçün doğma şəhər olmayıb”**

Dövlət başçısı vurğulayıb ki, işğal dövründə Şuşanın dağıdılması bir daha göstərir ki, o, heç vaxt ermənilər üçün doğma şəhər olmayıb: ”Şuşa həmişə Azərbaycan şəhəri olub. Yalnız işğal dövründə iyirmi səkkiz ildən artıq müddət ərzində Şuşa əcnəbi hökmranlığı altında idi. Siz bizim görüşdən sonra şəhərə ekskursiya edəcəksiniz və özünüz görəcəksiniz ki, işğal dövründə Şuşa demək olar, tamamilə dağıdılmışdı. Bu, bir daha onu göstərir ki, Şuşa heç vaxt ermənilər üçün doğma şəhər olmayıb”.

**”Biz regionda baş verən proseslərə göz yuma bilmərik”**

Dövlət başçısı əlavə edib ki, biz bu məkanda əsasən Azərbaycanın gələcək inkişafı ilə bağlı olan fikir və ideyaların mübadiləsini aparmaqla praktik addımları müzakirə etmək istəyirik və regional inkişaf proseslərinə də nəzər salmalıyıq: ”Çünki biz regionda baş verən proseslərə göz yuma bilmərik. Qarabağın azad edilməsindən sonra ölkə daxilində artıq heç bir risklə üzləşmədiyimizə baxmayaraq, biz adada yaşamırıq. Görüşün Şuşada keçirilməsi xüsusi məna daşıyır. Keçən ili mən ”Şuşa İli” elan etmişdim, çünki bu şəhərin Qarabağ xanı Pənahəli xan tərəfindən yaradılmasının 270-ci ildönümü idi”.

**“Sülh sazişinin mətninə mövcud olmayan Dağlıq Qarabağı salmaq üçün istənilən cəhd qeyri-məhsuldardır”**

Prezident deyib ki, sülh sazişinin mətninə mövcud olmayan Dağlıq Qarabağı salmaq üçün istənilən cəhd qeyri-məhsuldardır: ”Biz onlara (Ermənistana) sülh sazişinin layihə variantının dörd nüsxəsini, dörd yeni variantını göndərdik. Onlar öz qeydlərini bildirdilər. Biz onların sonuncu şərhini qırx gündən çoxdur ki, gözləyirdik. Biz bu şərhi, sadəcə, bir həftə bundan əvvəl aldıq. Bu da Vaşinqtondakı görüşdən əvvəl idi, çünki onlar onsuz da Vaşinqtondakı görüşün mənasız olduğunu başa düşdülər. Bizim bu şərhlərdə gördüklərimiz yenə də Azərbaycana qarşı ərazi iddialarıdır. ABŞ və Avropa İttifaqının rəsmiləri ilə çoxsaylı danışıqlarımızda Ermənistana və ABŞ-yə tamamilə aydın idi ki, burada ikiistiqamətli yanaşma olmalıdır. Birincisi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması, ikincisi, Azərbaycan hökuməti və Qarabağın erməni icması ilə danışıqlar. Buna görə də sülh sazişinin mətninə mövcud olmayan Dağlıq Qarabağı salmaq üçün istənilən cəhd qeyri-məhsuldardır”.

Prezident diqqətə çatdırıb ki, İkinci Qarabağ müharibəsi bitəndə çoxu sonra nəyin baş verəcəyini bilmirdi: ”Çünki üçtərəfli bəyanat atəşkəs razılaşması deyil. O, həmçinin sülh sazişi də deyil. Beləliklə, sonra nəyin baş verəcəyi böyük sual işarəsi idi. Biz təşəbbüs göstərdik, inteqrasiya olunmuş Cənubi Qafqaz, regional əməkdaşlıq, münasibətlərin normallaşması üçün gələcəyə baxışı irəli sürdük. Buna görə biz sülh danışıqlarına başlamaq təşəbbüsünü irəli sürdük. Bütün istiqamətlərdən səs çıxmadı. Biz müəyyən vaxt gözlədikdən sonra tamamilə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun gələn beş prinsipi irəli sürdük. Ermənistan rəsmən ya bunları rədd etməli idi, ya da onları qəbul etməli idi. Rədd etsəydilər, bu, yenə də onların qeyri-konstruktiv olduğunu göstərəcəkdi, çünki bu prinsiplərdə beynəlxalq hüquqa zidd olan heç nə yox idi. Onların qəbul edilməsi isə psixoloji nöqteyi-nəzərdən, normal davranış sərgiləməyə razı olmaq nöqteyi-nəzərindən yəqin ki, onlar üçün çətin idi. Sonra isə bizdə Ermənistanın ciddi danışıqlarda iştirak etmək istəməməsi səbəbindən yenə də uzun fasilə oldu”.

Ölkə başçısı bildirib ki, sülh sazişi haqqında danışıqların başlanılmasını təklif edən Azərbaycan olub: ”Otuz ilik işğal onlara heç bir üstünlük vermədi. Əksinə, onlar regional inkişaf proseslərindən təcrid edildilər. Onlar rəsmən, lakin faktiki surətdə, həqiqətən də, müstəqil ölkə olmaq şansını itirdilər. Onlar indi özlərinə yeni ağa və ya ağalar axtarırlar. Lakin tarix onlara dərs verməlidir. Ümid edirik ki, onlar bunu başa düşəcəklər”. Dövlət başçısı qeyd edib ki, erməni həmkarı ilə danışıqlarında sülh sazişinin, ilk növbədə onların marağına xidmət etdiyini izah etməyə çalışdığını vurğulayıb. Prezident İlham Əliyev həmçinin diqqətə çatdırıb ki, sülh sazişi haqqında danışıqların başlanılmasını təklif edən də Azərbaycan olub.

**“Ermənilər ərazi bütövlüyümüzlə bağlı kompromisə gedəcəyimizi düşünürdülər”**

Prezident qeyd edib ki, Ermənistan münaqişənin sülh yolu ilə həllini istəmirdi: ”Onlar vəziyyətin olduğu kimi qalmasını və onu dondurmaq istəyirdilər. Düşünürdülər ki, işğalı legitimləşdirə biləcəklər”. Ermənilərin Azərbaycanın ərazi bütövlüyü ilə bağlı kompromisə gedəcəyini düşündüklərini deyən dövlət başçısı bildirib ki, ermənilər hesab edirdilər ki, onların beynəlxalq sponsorları həmişə onların yanında olacaq və onlar üçün mübarizə aparacaqlar: ”Lakin bu, səhv hesablanmış bir addım idi. Onlar yanlış idilər”.

**”Şuşa Bəyannaməsinin imzalanması tarixi hadisə idi”**

Prezident bəyan edib ki, Şuşa Bəyannaməsinin imzalanması tarixi hadisə idi: ”Türkiyə və Azərbaycanı rəsmi olaraq müttəfiq edən Şuşa Bəyannaməsi burada, Şuşada imzalanmışdı. Bu, tarixi hadisə idi. Buna baxmayaraq, Azərbaycanla Türkiyə arasında münasibətlər de-fakto müttəfiq münasibətləri idi və biz bunu xüsusi olaraq son iyirmi ildə nümayiş etdirmişdik”.

Dövlət başçısı vurğulayıb ki, biz Ermənistanın konstruktivliyinə ümid edirik: ”Əgər onlar konstruktiv olmasalar, biz diplomatik tədbirlərdən başqa hər hansı bir digər tədbirlərə əl atmağı planlaşdırmırıq. Bu qədəri bizə bəsdir. Buna görə, sadəcə, sülh olmayacaq, kommunikasiyalar açılmayacaq. Onlar yenə də təcrid olunacaqlar və onlar bu yeni geosiyasi konfiqurasiyada özlərinə yer tapmalı olacaqlar. Çünki bütün geosiyasi vəziyyət, - söhbət təkcə regiondan deyil, qlobal vəziyyətdən gedir, - dəyişib. Bizim orada öz yerimiz var. Bu yer çox sabitdir və getdikcə daha da möhkəmlənir. Lakin onlar üçün bu, böyük çağırış olacaqdır. Ümid edirəm ki, Vaşinqton danışıqları hətta nəticə verməsə belə, biz tərəqqinin əlamətlərini görə biləcəyik”.

**“Azərbaycan-Türkiyə müttəfiqlik münasibətləri regional inkişafın önəmli amilidir”**

Dövlət başçısı deyib ki, Prezident Ərdoğanın Türkiyəyə rəhbərlik etdiyi son iyirmi ildə münasibətlər birgə səylər nəticəsində təkcə qardaş xalqlar arasında deyil, eyni zamanda müttəfiqlər arasında olan münasibətlərə çevrilib: ”Biz bunu dəfələrlə nümayiş etdirmişdik. Buna görə, əlbəttə ki, bu, regional inkişafın önəmli amilidir”.

**“Biz əməli nəticələrə çevrilməyən bəyanatlardansa, həmişə praktik addımlar yolunu seçmişik”**

Prezident deyib ki, Azərbaycan əməli nəticələrə çevrilməyən bəyanatlardansa, həmişə praktik addımlar yolunu seçib: ”NATO on beş il bundan əvvəl Ukraynaya və Gürcüstana NATO üzvlüyünü vəd etmişdi. Bu, mənim xatirimdədir. Mən NATO-nun Buxarestdəki Zirvə görüşündə iştirak edirdim və Ukrayna ilə Gürcüstan bəzi aparıcı Avropa ölkələrinin rəhbərləri tərəfindən NATO-ya üzvlük üçün tədbirlər planına qəbul edilməmişdi. Lakin bunun əvəzində elan olunmuşdu ki, onlar üzv olacaqlar. Nə zaman? Bunu heç kim söyləmədi, 15 il keçib. Onlar olduqları yerdədirlər. Lakin biz ordusunun gücü baxımından NATO-nun ikinci dövləti ilə saziş imzaladıq və bu, ciddidir. Beləliklə, biz əməli nəticələrə çevrilməyən bəyanatlardansa, həmişə praktik addımlar yolunu seçmişik”.

**“Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olub”**

Ölkə rəhbəri qeyd edib ki, Heydər Əliyev həmişə Azərbaycan xalqının maraqlarını qoruyan bir şəxs olub və bunu zamana, siyasi vəziyyətə baxmayaraq edib: ”Sovet Azərbaycanı dönəmində hətta ideoloji əngəllər çərçivəsində Ulu Öndər Azərbaycan xalqının maraqlarını qoruyurdu, milli kimliyimizi saxlaya bilməyimiz üçün əlindən gələni etməyə çalışırdı. 70-ci illərdə və 80-ci illərin əvvəlində Heydər Əliyev tərəfindən atılmış bir çox addımlar Azərbaycanın müstəqilliyinə hədəflənmişdi”. Prezident vurğulayıb ki, Ulu Öndərin xatirəsinə həsr olunmuş tədbirlər il ərzində davam edəcək.

İsmayıl




# Azərbaycan Laçın yolundakı postu götürməyəcək

## Lentsov bu məsələyə müdaxilə etmək səlahiyyətində deyil

**Xankəndi separatçılarının rəhbəri Araik Arutyunyan və qondarma ”dövlət naziri” dünən ikinci dəfə sülhməramlıların yeni komandanı Aleksandr Lentsovla görüşüb. Lentsov onları öz qərargahında qəbul edib və Laçın yolu ilə bağlı müzakirələr aparılıb. Lentsov yaxın günlərdə Bakıya gedəcəyini və məsələ ilə bağlı danışıqlar aparacağını bildirib.**

Bu, ötən həftə təyinat alan Lentsovun Arutyunyanla 2-ci, separatçılarla 3-cü görüşüdür. Qeyd edək ki, Həkəri körpüsü üzərində sərhəd-keçid məntəqəsi qurulduqdan sonra erməni separatçılar və Ermənistan rəsmiləri 10 noyabr 2020-ci il bəyanatının 6-cı bəndini əsas gətirməyə çalışırlar. Halbuki Ermənistan tərəfi erməni silahlı birləşmələrinin Azərbaycan ərazisindən çıxmasını və Zəngəzur dəhlizinin açılmasını təmin etməməklə bəyanatın maddələrini çoxdan pozublar. Əvəzində isə Azərbaycanın humanitar yol kimi maneəsiz gediş-gəlişə şərait yaratdığı Laçın yolundan silah, mina daşınması və Qarabağdakı qanunsuz silahlıların yenidən toparlanması üçün sui-istifadə ediblər. Hazırda yol humanitar məqsədlər üçün açıqdır, lakin Ermənistan artıq bu yolla silah-sursat, mina və şəxsi heyət daşıya bilmir.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev ”Şərq”ə açıqlamasında bildirib ki, rus sülhməramlı kontingentinə rəhbərlik edən Aleksandr Lentsovun ermənilərdən yana addım atacağı gözlənilən idi. Professor bildirib ki, Lentsovun həyat yoldaşı ermənidir:** ”Lentsovun Bakıdan öncə İrəvana getməsi qəbuledilməz, separatçılarla 3 dəfə görüş keçirməsi isə qanunsuzdur. Qondarma rejimi təmsil edənlər separatçılar, terrorçulardır. Onlarla sıx təmasda olmaq yolverilməzdir. Bu məqam Bakıda rus generalın diqqətinə çatdırılmalıdır və şübhə yox ki, çatdırılacaq. Rusların ermənilərlə birgə təxribatçı addımlarını çox görmüşük. Sülhməramlıların rəhbərinin ilk səfərini İrəvana etməsi də səbəbsiz deyil. Ermənistanla sərhəddə, Laçın yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsinin qurulması erməni cəmiyyətində narahatlığa səbəb olub. Rusiya Ermənistanı yenidən tam nəzarətə götürmək üçün gedişlər edir, yollar axtarır. Daha doğrusu, Moskva İrəvanın nazı ilə oynayır. Lentsov İrəvana getməklə, Qarabağda separatçılarla görüşməklə keçid məntəqəsinin müzakirə olunacağını, bununla bağlı görüşlər keçirəcəyini göstərməyə çalışır. Təbii ki, bunlar boş, mənasız cəhdlərdir. Azərbaycan Laçın yolundakı postu götürməyəcək və bir addım geri atmayacaq. Lentsov bu məsələyə müdaxilə etmək səlahiyyətində deyil”.

İsmayıl Qocayev

# Bu yol Ermənistanı çöküşə aparır

## “Zaman onların əleyhinə işləyir”

**Türkiyə hava məkanını Ermənistan üçün bağlayıb. Xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, bu qərarın verilməsi Ermənistan hökumətinin qərəzli və düşmənçilik davranışlarını davam etdirməsi ilə bağlıdır. Nazir qeyd edib ki, Azərbaycan və Osmanlı dövlət xadimlərini hədəf alan “Nemezis” terror əməliyyatına İrəvanda abidə ucaldılması qəbuledilməzdir.**

Çavuşoğlu əlavə edib ki, hava məkanının qapadılmasından başqa nə lazım olsa, onu edəcəklər: ”Vətən müharibəsi başa çatandan sonra Azərbaycanla Türkiyə səmimi şəkildə Ermənistanla münasibətlərin normallaşdırılmasını istədi. Azərbaycan sülh təşəbbüsü ilə çıxış etdi. Lakin Ermənistan Qarabağa silah sızdırır, gərginlik yaradır. Ermənistanla münasibətlərin normallaşdırılması prosesini Azərbaycanla koordinasiya edirik. Biz Ermənistanla dialoqa başlayarkən nə Ermənistan bizə ”qondarma “soyqırımı” qəbul edin” deyib, nə də biz onlara ”bundan vaz keçin” demişik. İrəvanda “Nemezis” əməliyyatına abidə ucaldılması Ermənistanın xoşniyyətli olmadığını göstərir”. XİN başçısı deyib ki, sadəcə Ermənistan parlamentinin sədri Alen Simonyanın Türkiyənin hava məkanından istifadə etməsinə icazə verilib. Çünki Simonyan beynəlxalq tədbirə qatılmaq üçün Türkiyəyə səfər edəcək. Türkiyə Prezidentinin sözçüsü İbrahim Kalın da Ermənistanın uydurma ”soyqırımı” ittihamlarının cavabsız qalmadığını da qeyd edib.



“İndiki məqamda İrəvanın ağlını başına toplaması, Azərbaycan və Türkiyə ilə ikili münasibətləri normallaşdırması şərtdir”

**Ankara Universitetinin professoru, politoloq Toğrul İsmayıl ”Şərq”ə açıqlamasında bildirib ki, Ermənistanda siyasi vəziyyət stabil deyil, ölkədə böhranlı vəziyyət hökm sürür. Professor vurğulayıb ki, Nikol Paşinyan baş nazir olsa da, pozulmuş güc balansını bərpa etmək, bütün səlahiyyətləri öz əlinə almaq iqtidarında deyil:** ”Ən əsası odur ki, hazırda Ermənistanda antitürk əhval ruhiyyəsi çox güclüdür. Bunu Azərbaycana və Türkiyəyə yönəlik siyasətdə açıq-aşkar görmək mümkündür. Paşinyan özü də stabil siyasət yeritmir. Gah qonşu ölkələrlə normal əməkdaşlıqdan, münasibətlərin qurulmasının zəruriliyindən danışır, gah da ərazi iddiası ilə çıxış edir, sülhə zidd açıqlamalar verir. Görünən odur ki, bütünlüklə erməni cəmiyyəti anti-türk isteriyası ilə zəhərlənib və bu xəstəliyi qısa müddətdə ortadan qaldırmaq qeyri-mümkündür. Belə faşist və irqçi yanaşma İrəvan və ermənilərin normal düşünməsini əngəlləyir. Qondarma ”soyqırımı” məsələsinin ortaya atılması və ona ”abidə” qoyulması münasibətlərin normallaşması istiqamətində ən böyük maneələrdən biridir. Ermənistan aqressiv siyasətdən vaz keçmir. Ermənilər nəinki Azərbaycan və Türkiyəyə, hətta Gürcüstan və Rusiyaya da ərazi iddiası ilə çıxış edirlər. Fərqində deyillər ki, zaman Ermənistanın əleyhinə işləyir. İndiki məqamda İrəvanın ağlını başına toplaması, Azərbaycan və Türkiyə ilə ikili münasibətləri normallaşdırması şərtdir”.

**T.İsmayıl vurğulayıb ki, Ermənistan regionda var olmaq istəyirsə, iki ən mühüm qonşusu ilə əlaqələri mütləq düzəltməlidir:** ”Ermənistanın Cənubi Qafqazda müstəqil dövlət kimi varlığı Rusiya, ABŞ, Avropaya yox, birbaşa Türkiyə və Azərbaycana bağlıdır. Bu iki ölkənin öz qapılarını ermənilərin üzünə bağlı saxlaması Ermənistanın çöküşünə kifayət edəcək. Ermənistanda kiçik uşaqların beyinlərini zəhərləyir, onlara faşizmi, irqçiliyi aşılayırlar. Belə şərtlər daxilində dövlətlər və xalqlar arasında münasibətlərin düzəlməsi imkansızdır. Həm Azərbaycan, həm də Türkiyə Vətən müharibəsindən sonra Ermənistana sülh və əməkdaşlıq təklifi edib. Əfsuslar olsun ki, iki ildən artıq zaman ötsə də, ermənilər reallığı görmürlər, görmək istəmirlər. Terrorçu təfəkkürü davam etdirirlər. Bu da Ermənistanı uçuruma aparır. Ermənilər başqa dövlətlərin əlində oyuncağa, maşaya çevrilirlər. Bölgədə maraqları olan güclər maşa kimi istifadə etdikləri erməni siyasətçilərin diliylə mövcud vəziyyəti daha da gərginləşdirir, bundan faydalanmağa çalışırlar. Bu işin sonu yoxdur. Münasibətlərin normallaşmasının müzakirə olunduğu vaxtda terror təşkilatına ”abidə” qoyulması, faşist Njdeyə heykəl ucaldılması, qonşulara kin və nifrət bəsləmək böyük faciədir”.

İsmayıl Qocayev

# Rusiya bölgədə yeni təxribatlara əl ata bilər

## Burada söhbət Azərbaycanın, ya da Ermənistanın xeyrinə nəsə etməkdən getmir



"Əsas məsələ Cənubi Qafqazda kimin öz təsir gücünü, nüfuz dairəsini qoruyub saxlaya biləcəyi ilə bağlıdır"

**ABŞ-də rəsmi Vaşinqtonun vasitəçiliyi ilə keçirilən Azərbaycan və Ermənistan XİN başçılarının danışıqları ilə bağlı Rusiyanın mövqeyi birmənalı deyil. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Azərbaycan-Ermənistan danışıqları Rusiyanın deyil, başqa ölkənin iştirakı ilə keçirilir. Onun sözlərinə görə, danışıqlarda baş verən proseslər barədə bilavasitə iştirakçılardan maraqlanmaq lazımdır:**

"Danışıqların yekunu ilə bağlı bəyanatdan sonra tərəflər öz mövqelərini bildirəcəklər və bundan sonra Rusiya tərəfi bunu şərh edə bilər". Bununla yanaşı, Zaxarova ölkəsinin üçtərəfli razılaşmaların bütün müddəalarının həyata keçirilməsinin tərəfdarı olduğunu söyləyib: "İrəvan və Bakı növbəti görüşün Moskvada keçirilməsinə hazır olduqlarını təsdiqləyiblər. Görüşün vaxtı barədə daha sonra məlumat verəcəyik". Xatırladaq ki, Rusiya Prezidenti Vladimir Putinin sözçüsü Dmitri Peskov da üçtərəfli bəyanatların alternativinin olmadığını demişdi. Onun sözlərinə görə, problemlərin həlli və gərginliyin azaldılması ancaq üçtərəfli sənədlər əsasında mümkündür. Göründüyü kimi, Moskva açıq-aşkar ABŞ-nin vasitəçiliyi ilə Vaşinqtonda xarici işlər nazirlərinin üçtərəfli görüşündən və müzakirələrindən narahatdır.

**Rusiyanın sərgilədiyi yanaşma ilə bağlı "Şərq"ə danışan millət vəkili Elman Məmmədov deyib ki, Kreml rəsmiləri Vaşinqtonun təşəbbüsü ilə keçirilən görüşlərə istehzalı, ironik münasibət bildirirlər. Deputatın sözlərinə görə, Rusiya demək istəyir ki, Moskvanın iştirakı və müdaxiləsi olmadan Azərbaycan-Ermənistan arasındakı danışıqlarda, sülh prosesində irəliləyiş qeyri-mümkündür və heç bir dövlət burada uğur əldə edə bilməz:** "Kreml ona görə belə düşünür ki, mövcud konfliktin yaranmasının kökündə birbaşa Rusiya amili dayanır. 1988-ci ildəki proseslərin başlanmasında, ermənilərin təhrik edilməsində, silahlandırılmasında və torpaqlarımızın 20 faizinin 30 il işğalda saxlanmasında Rusiya faktoru əsas olub. Məhz bu səbəbdən Ermənistan üzərindən, Cənubi Qafqazdan əllərini çəkməyi qətiyyən düşünmürlər. Nəzərə alaq ki, Ermənistan adlı ərazidə Rusiyanın hər cür silah-sursata və döyüş hazırlığına malik olan ordusu yerləşdirilib. Bu azmış kimi, üstəlik, 2020-ci ilin noyabr ayından etibarən iki minə yaxın rus qoşunu Azərbaycana, Qarabağa soxuldu. Rusiya deyir ki, əgər bölgədə onlar varsa, rusların ordusu varsa, deməli, kənar qüvvələr Azərbaycan-Ermənistan danışıqlarında söz sahibi ola bilməz. Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin təşəbbüsü ilə tərəflər arasında bir neçə görüş baş tutdu. Amma nəticə olmadı. ABŞ də dünyanın hegemon gücü kimi fəallıq nümayiş etdirir. Pərdəarxası məqsəd yoxdursa, səmimidirsə, sülhə nail olmağa çalışır. Ancaq sirr deyil ki, ABŞ və Avropanın əsas niyyəti Rusiyanı Cənubi Qafqazdan sıxışdırmaqdır. Bunu da ona görə edirlər ki, bölgədə rusların əvəzinə özləri yerləşsin".

**Parlament üzvü vurğulayıb ki, Rusiya bunu dərk etdiyi üçün regiondan çəkilmək fikrində deyil:** "Hətta Vaşinqtonda keçirilən görüşlərdə hansısa ciddi irəliləyişlər olarsa, Rusiya bölgədə yeni təxribatlara da əl ata bilər. Burada söhbət Azərbaycanın, ya da Ermənistanın xeyrinə nəsə etməkdən getmir. Əsas məsələ Cənubi Qafqazda kimin öz təsir gücünü, nüfuz dairəsini qoruyub saxlaya biləcəyi ilə bağlıdır. Yəni dünyanın güc mərkəzləri arasında növbəti rəqabətdir. Öz maraqları naminə bölgə xalqlarını üz-üzə qoyaraq yeni müharibə ocaqları yarada bilərlər. Bunlar çox ciddi məsələlərdir və arzu edirik ki, kənar güclər bir-birinin acığına bizi bəlaya salmasınlar".

**İsmayıl Qocayev**

# Vaşinqton danışıqlarında razılaşma gözlənilir

## ABŞ Ermənistanı mayın sonuna qədər sülh müqaviləsinin ilkin variantını imzalamağa məcbur edir



**Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ABŞ-də ikitərəfli görüşü davam edir. Vaşinqtona yaxın Arlinqton şəhərində keçirilən görüşdə XİN başçıları tərəfindən Azərbaycan və Ermənistan arasında sülh sazişi layihəsinə dair müzakirələr aparılır. Məlumat üçün bildirək ki, mayın 1-də Vaşinqtonda ABŞ dövlət katibi Entoni Blinkenin iştirakı ilə Azərbaycan və Ermənistan XİN başçılarının görüşü olub.**

Daha sonra Ceyhun Bayramov və Ararat Mirzoyan ikitərəfli görüş keçiriblər. ABŞ mediası tərəflər arasında bəzi məsələlərlə bağlı anlaşma sənədinin müzakirə edildiyini yazıblar. Ermənistanın hakim partiyasından olan deputat Sarkis Xandanyan da deyib ki, sülh sazişinin mətni ilə bağlı danışıqlar gedir. O bildirib ki, danışıqlar tamamlanana qədər nəticələr barədə danışmaq tezdir. Deputatın sözlərinə görə, Ermənistanın vəzifəsi regionda hərtərəfli sülhə və Azərbaycanla münasibətləri tənzimləməyə nail olmaqdır: "Bu məsələlər danışıqlar masası arxasında həllini tapmalıdır. Aydınlaşdırmaya ehtiyacı olan hüquqi ifadələr var. Sənəd siyasi müzakirələrin nəticəsidir. Sülh sazişinin etibarlı olması üçün buna təminat verən mexanizmlər lazımdır". Xandanyan söyləyib ki, bu mexanizmlərin yaradılması beynəlxalq ictimaiyyətin fəal iştirakı ilə bağlıdır.

Politoloq Turab Rzayev bildirib ki, ABŞ Ermənistanın və separatçıların ümidlərini alt-üst edib. Onun sözlərinə görə, Vaşinqton Qarabağ ermənilərinin "müstəqillik" və ya "öz müqəddəratını təyin etmək hüququ" kimi tələblərini absurd sayıb, bunu da Ermənistan XİN-in nəzərinə çatdırıb: "Dövlət departamenti Azərbaycanda ərazisində yaşayan erməniləri sadəcə, Azərbaycan suverenliyi daxilində etnik azlıqlardan biri kimi görmək istədiyini rəsmi İrəvana bildirib. Azərbaycan XİN başçısı Ceyhun Bayramovla Ermənistan xarici işlər naziri Ararat Mirzoyan arasında başlayan Vaşinqton danışıqlarının bir neçə gün davam edəcəyi və tərəflərin razılığa gələcəyi görünür. ABŞ Ermənistanı mayın sonuna qədər sülh müqaviləsinin ilkin variantını imzalamağa məcbur edir. Vaşinqton planında "Dağlıq Qarabağ" Azərbaycan suverenliyinin daxilindədir, onun tərkib hissəsidir. Azərbaycan ərazisində hansısa yeni erməni dövlətinin "müstəqilliyi"ndən, öz müqəddəratını təyinetmə hüququndan söhbət gedə bilməz. Erməni mətbuatının sızdırdığı məlumata görə, Qarabağdakı ermənilər Azərbaycanın tərkibində sadəcə etnik azlıq kimi tanınacaqlar".

**Siyasi şərhçi Asif Nərimanlı isə bildirib ki, Vaşinqton görüşündə əsas məqam danışıqların bir gündən daha çox davam etməsidir. Analitik də hesab edir ki, tərəflər sülh sazişinin imzalanmasına yaxındır:** "Ən azı sülh sazişi ilə bağlı "yol xəritəsi" üzərində anlaşma imkanı var. İstisna deyil ki, görüşün uzunmüddətli keçirilməsi Rusiyanın prosesə müdaxilə etməsi riskinə qarşıdır və ABŞ masadan razılaşma ilə qalxmaq niyyətindədir. Bundan öncə də yazmışdıq. Laçında sərhəd-keçid məntəqəsinin qurulması sülh müqaviləsində maneələrdən biri, kommunikasiyanın "yol məntiqi" üzrə açılmasının aradan qalxması və ABŞ masasında irəliləyiş əldə etmək imkanı yaradıb. Vaşinqton danışıqlarında diqqətçəkən məqamlardan biri də Qarabağdakı ermənilərin Azərbaycan tərkibində "etnik azlıq" olaraq qəbul edilməsi və yalnız "hüquq və təhlükəsizliyinin qorunması" üzrə müzakirələrin aparılmasıdır. Müsbət gözləntilər artır, hərçənd, Rusiyanın prosesi pozmaq cəhdlərinin olacağı da aydındır. Peskov açıq şəkildə "münasibətlər yalnız üçtərəfli razılaşmalar çərçivəsində mümkündür" dedi və bununla razılaşmanı qəbul etməyəcəklərini öncədən elan etdi. Moskvanın rıçaqları hələ də var, xüsusilə Qarabağdakı separatçılar üzərindən problemlər yarada bilər. Eyni zamanda nazirlərin Vaşinqtondan sonra Moskvada planlaşdırılan görüşü Rusiyanın hər iki tərəf üçün məqbul ola biləcək təkliflər verə biləcəyi ehtimalını da önə çıxarır: mümkündür ki, bu, üçtərəfli razılaşmalarda korrektələrin edilməsi ola bilər, xüsusilə kommunikasiyanın açılması ilə bağlı məsələlərdə. Baş verənlər sülh sazişinin Bakı və İrəvandan daha çox, geosiyasi oyunçuların hansının qalib gələcəyindən asılı olduğunu göstərir".

**İsmayıl Qocayev**

# "Millətin atası"na ərməğan

## Professor Arif Quliyevin kitabının təqdimatı keçirilib



**Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) "Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, professor Arif Quliyevin "Millətin atası" (Oteü naüii) kitabının təqdimatı baş tutub.**

Təqdimatda elm xadimləri, millət vəkilləri, media nümayəndələri iştirak ediblər.



Tədbiri giriş nitqi ilə MEK-in baş direktoru, professor Məmməd Əliyev açaraq qeyd edib ki, bütün mənalı ömrünü xalqına həsr etmiş, siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti ilə Azərbaycan xalqının tarixində dərin izlər buraxaraq əsl dövlət idarəçilik məktəbinə çevrilən Ulu Öndərin irsinə həsr olunmuş yeni əsərlər, kitablar və monoqrafiyalar nəşr olunur. Diqqətə çatdırıb ki, təqdimatı keçirilən "Millətin atası" (Oteü naüii) kitabı da məhz müasir Azərbaycan dövlətinin qurucusu Ümummilli Lider Heydər Əliyevin fəaliyyətini əks etdirir.

Çıxışı zamanı prof. Məmməd Əliyev bu kitabı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə müəllifin şəxsi töhfəsi kimi qiymətləndirib. Həmçinin kitabxananın fondlarının belə nəşrlərlə zənginləşməsinin istifadəçilər üçün faydalı olacağını ifadə edib.

AMEA-nın birinci vitse-prezidenti akademik Arif Həşimov çıxış edərək təqdimatı keçirilən kitabı müəllifin uzun illər zəhmətinin bəhrəsi olduğunu vurğulayıb. Akademik Arif Həşimov bildirib ki, Ulu Öndər haqqında çoxsaylı dəyərli nəşrlər yazılıb və yazılmaqda davam edəcək, Heydər Əliyevin irsi daim öyrəniləcək və gələcək nəsillərə ötürüləcək. Ukraynada gedən siyasi proseslər zamanında belə bir kitab yazmağın heç də asan olmadığını vurğulayan akademik Arif Həşimov bu baxımdan da müəllifin zəhmətini yüksək qiymətləndirib.

Daha sonra nəşrin müəllifi professor Arif Quliyev çıxış edərək kitabın ərsəyə gəlməsi istiqamətində gərgin zəhmətindən danışıb. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın memarıdır. Bildirilib ki, Heydər Əliyev Ukrayna və Azərbaycan arasında strateji partnyorluğun inkişafına böyük diqqət yetirərək həmişə Ukraynanın sabit dostu olmuşdur. Müəllif Heydər Əliyevlə şəxsən bir neçə dəfə görüşməsi barədə xatirələrini bölüşüb və monoqrafiyada xüsusi yer ayırdığını diqqətə çatdırıb. Bildirilib ki, Ulu Öndəri "Hakimiyyət ustası", "Böyük vətəndaş", "Əsrin adamı" adlandıraraq bu məsələlərə ayrı-ayrı fəsillər həsr edib. Müəllif, həmçinin kitabın təqdimatında göstərdiyi dəstəyə görə MEK-in rəhbərliyinə təşəkkürünü bildirib.

AMEA-nın müxbir üzvü, Qafqazşünaslıq İnstitutunun direktoru, millət vəkili, professor Musa Qasımlı öz növbəsində xarici dillərdə yazılaraq işıq üzü görən kitabların əhəmiyyətini vurğulayıb.

Tarix elmləri doktoru Eynulla Mədətli kitabın işıq üzü görməsi münasibətilə Arif Quliyevi bir daha təbrik edərək Ukraynada çalışdığı müddət ərzində müəlliflə sıx əməkdaşlıq əlaqələrindən danışıb, xaricdə yaşayan azərbaycanlı ziyalıların ölkəmizin həqiqətlərini dünyaya çatdırılmasındakı öhdəliklərini qeyd edib.

Daha sona millət vəkili Fatma Yıldırım vaxtilə Ulu Öndərin, bu gün də dövlət rəhbərimiz İlham Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində fəxrlə azərbaycanlı olduğumuzu hər yerdə vurğuladığını qeyd edib.

Millət vəkili Vüqar İskəndərov Ukrayna və Azərbaycan arasında strateji partnyorluğun inkişafına toxunub və orada yaşayan azərbaycanlı alimləri, tədqiqatçıları tərəfindən ərsəyə gətirilən hər bir nəşrin ölkəmiz üçün əhəmiyyətli olduğunu bildirib.

Azərbaycan Dillər Universitetinin elmi işlər üzrə prorektoru, professor Novruz Məmmədov çıxışında professor Arif Quliyevin diplomatiyaya, beynəlxalq münasibətlərə dair əhəmiyyətli yazılarının, monoqrafiyalarının müəllifi olduğunu bildirib.

*Sonda tədbir iştirakçıları xatirə şəkilləri çəkilib.*

**Aydın**

# Ermənistan üçün güzəşt bitir!

## "Rəsmi İrəvanın qeyri-konstruktiv addımları onu çətin vəziyyətə salıb"




"Bu vəziyyət Türkiyə ilə əlaqələrin qopmasına gətirib çıxarır"

**"Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlunun açıqlaması təsadüfi deyil".**

**Bunu "Şərq"ə Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin sədri, politoloq Samir Hümbətov Türkiyə XİN başçısı Mövlud Çavuşoğlunun Ermənistanla bağlı açıqlamasından danışarkən deyib.**

Onun sözlərinə görə, artıq uzun müddətdir, Türkiyə Azərbaycanla koordinasiyalı şəkildə Ermənistanla münasibətlərin normallaşması üçün müəyyən addımlar atıb:

"Qardaş ölkənin öz hava məkanını Ermənistan təyyarələri üçün açması, üçüncü ölkənin vətəndaşlarının sərhəddən götürülməsi, eyni zamanda ticarət əlaqələrinin qurulması ilə bağlı müəyyən razılaşmaların əldə olunması və s. məsələlər Türkiyənin jesti kimi dəyərləndirilə bilər. Amma görünən odur ki, Ermənistan buna razılaşmayıb. Bu da nəticə etibarilə ermənilərin niyyətinin heç də saf olmadığını göstərir.

Həmçinin bir müddət öncə düşmən ölkədə Azərbaycan bayrağı yandırıldı, bütün bunlar gözlə görünən faktlardır. Əlbəttə ki, Türkiyə dövləti güzəştə gedir, amma xeyri yoxdur. Qardaş ölkə Ermənistanda Osmanlı hərbi-siyasi liderlərinin və Azərbaycan rəsmilərinin qətlinin səbəbkarlarına həsr olunmuş abidənin qoyulmasını pisləyir.

Deməli, düşmən ölkədəki mövcud hökumət, həmçinin bəzi qruplar rəsmi İrəvanın Türkiyə ilə münasibətlərinin normallaşmasına o qədər də isti yanaşmırlar. Bütün bunlar münasibətlərin daha da gərginləşməsinə səbəb olacaq. Türkiyə bir neçə dəfə güzəştə gedə bilər.

Müəyyən müddətdən sonra güzəşt də bitir. Ermənistanın qeyri-konstruktiv addımları onu çətin vəziyyətə salıb, həm də Türkiyə ilə əlaqələrinin qopmasına gətirib çıxarır. Rəsmi İrəvanın rəsmi Bakı ilə münasibətlərinin normallaşdığı təqdirdə tərəflər arasında diplomatik əlaqənin qurula biləcəyini gözləmək olardı. Lakin görünür, Ermənistan bunu istəmir. Çavuşoğlu da açıqlaması ilə Ermənistan-Türkiyə münasibətlərinin hansı vəziyyətdə olduğunu bəlli etdi".

*Qeyd edək ki, Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu NTV-yə müsahibə verib. Türkiyəli nazir bildirib ki, ermənilər gərginlik yaradır, Qarabağa silah daşıyır.*

**Nihat Müzəffər**



# Milli Ordumuz dövlətin əsas sütunlarından biridir

## Baş nazirin məlum qərarı narkomaniya, narkotik maddə asılılığı olanların ordu sıralarına düşməməsi üçündür

**“Bu, ən vacib qərarlardan biridir və icrası dəqiqliklə aparılmalıdır”. Bu sözləri ”Şərq”ə açıqlamasında hərbi ekspert Ədalət Verdiyev Baş nazir Əli Əsədovun imzaladığı qərarla bağlı söyləyib. Xatırladaq ki, Baş nazir Əli Əsədovun imzaladığı qərarla ”Hərbi-həkim ekspertizası haqqında Əsasnaməyə” dəyişiklik edilib.**

Qərara əsasən, ”Narkoloji xidmət və nəzarət haqqında” qanunun 24.4-cü maddəsinə uyğun olaraq müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslər çağırış dövründə qeydiyyatda olduqları dövlət tibb müəssisələri tərəfindən, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar bağlaşma imzalanmazdan əvvəl bağlaşma bağladıqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən, birbaşa kadr zabit heyətinə könüllü daxil olanlar həqiqi hərbi xidmətə daxil olmaları barədə əmr imzalanmazdan əvvəl kadr zabit heyətinə daxil olduqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən, həqiqi hərbi xidmət hərbi qulluqçuları isə (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) ildə bir dəfədən az olmayaraq xidmət keçdikləri dövlət orqanlarının tibb müəssisələri tərəfindən icbari narkoloji müayinədən keçiriləcəklər. ”Çağırışçıların, eləcə də hərbi qulluğa daxil olanların narkoloji müayinədən keçirilməsində məqsəd nədir və bunun nə kimi faydası olacaq”, sualına cavabında ehtiyatda olan zabit Ədalət Verdiyev qeyd etdi ki, məlum qərar narkotik maddələrə bağlılığı, narkoticarətlə hər hansı əlaqəsi olmuş şəxslərin orduya düşməsinin qarşısını alacaq:

- Bu, çox vacib qərardır. Bu məsələnin hüquqi əsasları ötən il hazırlanıb. Məlumdur ki, ölkənin güc strukturları, təhlükəsizlik orqanları narkomaniya ilə ciddi mübarizə aparır. Milli Ordumuz da dövlətin əsas sütunlarından biridir. Baş nazirin məlum qərarı narkomaniya, narkotik maddə asılılığı olanların ordu sıralarına düşməməsi üçündür. Çağırışçıların narkoloji müayinədən keçirilməsi də vacibdir, hazırda həqiqi hərbi xidmətdə olanların da. Baş nazirin imzaladığı qərarda qeyd edilir ki, həqiqi hərbi xidmət qulluqçuları da ildə bir dəfədən az olmayaraq narkoloji müayinədən keçiriləcək. Bu həm də profilaktik məqsəd daşıyır. Hesab edirəm ki, bu, narkomaniya ilə mübarizədə kompleks tədbirlərin tərkib hissəsidir. Və narkomaniya ilə, yaxud narkotik maddələrin alınıb-satılması, saxlanması, daşınması ilə hər hansı formada məşğul olan şəxslərin güc strukturlarında təmsilçiliyinin elə ilkin mərhələdə qarşısını alacaq. Güc strukturlarında çalışanların fiziki sağlamlığı necə vacibdirsə, psixi sağlamlıqları da eyni dərəcədə vacibdir.

**Məlahət Rzayeva**

# Dünya bazarlarında ajiotaj yaşanmır

## “Taxıl sazişi”nin artıq bir əhəmiyyəti qalmayıb

Sazişin müddəti uzadılsa da, uzadılmasa da, bunun taxıl qıtlığı və ya bolluğuna təsiri olmayacaq



**BMT Baş katibinin ofisi Rusiya, Türkiyə və Ukrayna nümayəndələrinin mayın 3-də beynəlxalq təşkilatın bayrağı altında taxıl sazişi müddətinin uzadılması ilə bağlı görüş barədə məlumatı təsdiqləməyib.**

Bu barədə TASS xəbər verib. Çərşənbə axşamı baş katibin mətbuat katibinin müavini Fərhan Hak bildirib ki, mayın 3-nə planlaşdırılan heç bir görüşdən xəbəri yoxdur. Bu, ”Taxıl sazişi” ilə bağlı görüşün ümumiyyətlə baş tutmayacağı, sazişin müddətinin uzadılmayacağı anlamına gəlirmi?

**İqtisadçı Pərviz Heydərov ”Şərq”ə açıqlamasında qeyd etdi ki, ”Taxıl sazişi” hazırda aktuallığını itirib. O görüş olsa da, olmasa da, sazişin müddəti uzadılsa da, uzadılmasa da, bunu taxıl qıtlığı və ya bolluğuna təsiri yoxdur artıq:**

- Rusiya-Ukrayna müharibəsi 1 ildən artıqdır davam edir. Ukrayna torpaqlarında aparılan hərbi əməliyyatlar onu aparıcı taxıl istehsalçısı ölkələr sırasından çıxarır. Müharibə bitdikdən sonra ölkə taxılçılığı yenidən dirçəltməli olacaq. Hazırkı dövrdə Ukraynada taxılçılığın inkişafını, bu ölkənin yenə də əsas taxıl idxalçısı olacağını gözləməyinə dəyməz. Məlum ”Taxıl sazişi” də müəyyən vaxt üçün faydalı oldu. Bu saziş Ukrayna anbarlarında toplanmış taxılın ixracına razılıq məqsədi daşıyırdı və öz hədəfinə çatdı. Düşünmürəm ki, Ukrayna anbarlarında hələ taxıl qalmış olsun. Hazırda dünya bazarlarında da taxıl ajiotajı yaşanmır. Çünki taxıl istehsalçısı və əsas ixrac ölkələrində növbəti aydan etibarən biçin başlayacaq. İsti iqlimə məxsus ölkələrdə adətən iyun ayında başlayır, nisbətən mülayim iqlimli və şimal ölkələrində iyul-avqust aylarından etibarən başlayır. Taxıl biçini başa çatdıqdan sonra və ölkələrin nə qədər taxıl tədarük etdikləri bəlli olduqdan sonra bazara təsir başlayacaq. Bu, payız mövsümündə olacaq. Qiymətlər də o zaman məlum olacaq, bazara təsiri də hiss olunacaq. Ona görə də bildirirəm ki, ”Taxıl sazişi”nin artıq bir əhəmiyyəti qalmayıb.

**Məlahət Rzayeva**

# Mərkəzi Asiya uğrunda mübarizə şiddətlənir

## “Çin də Rusiya və Amerikanı qabaqlamağa çalışır”



**Rusiya, Çin və ABŞ-nin Mərkəzi Asiyada rəqabəti genişlənib. Bir müddət əvvəl Çinin Sian şəhərində Mərkəzi Asiya ölkələri və Çinin xarici işlər nazirlərinin dördüncü görüşü keçirilib. Xarici işlər nazirləri bu ay liderlərin görüşünü hazırlamaq məqsədilə bir araya gəliblər.**

Mərkəzi Asiya və Çin dövlət başçılarının birinci sammitində əməkdaşlığın müxtəlif istiqamətləri müzakirə olunacaq. Çin və Mərkəzi Asiya dövlətləri ikitərəfli əməkdaşlığı genişləndirmək istəyirlər. Bundan başqa, bu ölkələrin Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq və ”bir kəmər, bir yol” təşəbbüsünün reallaşmasıyla baglı fikir mübadiləsi aparacaqlar.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, Çin Mərkəzi Asiya uğrunda mübarizədə iki rəqibi - Rusiya və Amerika Birləşmiş Ştatlarını qabaqlamağa çalışır. Analitik qeyd edib ki, Rusiya Ukraynada apardığı işğalçı müharibə fonunda Mərkəzi Asiya istiqamətində tam gücüylə fəaliyyət göstərə bilmir:** ”Bu, Çinin maraqlarına cavab verir. Boşluğu Çinlə yanaşı, ABŞ və Avropa İttifaqı doldurmağa çalışır. Pekin Vaşinqtonla Brüsselin uyğurlara verdiyi dəstəkdən də narahatdır. Çin Mərkəzi Asiya ölkələrini ”bir kəmər, bir yol” layihəsinə cəlb etməklə özünə yaxın tutmaq istəyir. Ancaq buna mane olan amillər var. Birincisi, ilk mərhələdə layihənin reallaşmasına pandemiya mane oldu. İkincisi, Rusiyanın Ukraynada başlatdığı müharibə də Pekinin layihəsinə zərər vurdu. Çünki Çindən Avropaya məhsullar dəmir yolları ilə Mərkəzi Asiya və Rusiya üzərindən daşınmalı idi. Avropa İttifaqı Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etdiyinə görə məhsulların bu istiqamət üzərindən çatdırılması çətinləşib.

Buna baxmayaraq, Pekin əvvəlkitək Mərkəzi Asiyanı diqqət mərkəzində saxlamaq istəyir. Mərkəzi Asiyanın zənginlikləri Çin üçün vacibdir. Çinin Mərkəzi Asiya ölkələrinə milyardlarla dollar investisiyaları var. Çinin Mərkəzi Asiya ölkələrinə investisiyaları bu ilin başlanğıcı üçün 15 milyard dollara çatıb. Çinin Mərkəzi Asiya ölkələri ilə 2022-ci ildə ticarət mübadiləsi 70 milyard dolları keçib. Pekin ehtiyat edir ki, Mərkəzi Asiya qarışsa, Çinin investisiyaları təhlükə altında olacaq. Pekin bu baxımdan ABŞ ilə yanaşı radikal islamçı qüvvələrin fəallaşmasından çəkinir. Bu qüvvələrin Mərkəzi Asiyada fəallaşması ehtimalı Çinə ciddi təhlükə yaradacaq. Çinin Əfqanıstanın ”Taliban” rejimi ilə əməkdaşlığının məqsədlərindən biri də Əfqanıstan ərazisindən Mərkəzi Asiyaya islamçıların keçidinin qarşısının alınmasıdır”.

**Ekspert xatırladıb ki, Şanxay Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin müdafiə nazirlərinin toplantısı keçirilib:** ”Rusiyanın müdafiə naziri Sergey Şoyqu ABŞ və digər Qərb ölkələrinin Mərkəzi Asiya üçün təhlükə mənbəyi olduğunu vurğulayıb. Şoyqu Mərkəzi Asiya ölkələrinə ABŞ-yə qarşı müqavimət göstərməsinin vacibliyini bildirib. Bu, Rusiyanın Mərkəzi Asiya ölkələrinin daxili işlərinə qarışmasıdır. Kreml Mərkəzi Asiya ölkələrinin xarici və təhlükəsizlik siyasətini müəyyənləşdirmək istəyir. Rusiya Qırğızıstan və Tacikistanda hərbi bazalarını gücləndirmək qərarını verib. Moskva da Pekin kimi ABŞ-nin Çinə artan marağından narahatdır. ABŞ-nin məşhur ”The Wall Street Journal” dərgisində yayımlanan məqaləyə görə, həqiqətən, ABŞ Mərkəzi Asiyada hərbi qüvvələrini yerləşdirməyə məkan axtarır”.

**İsmayıl**

# “Bizi heç bir terrorla qorxutmaq olmaz”

## Azərbaycan güclü bir dövlət kimi istənilən təhdidlərə cavab verməyə hazırdır



**“İndi bizim İranla münasibətlərimiz heç vaxt olmadığı qədər aşağı səviyyədədir. Və bundan sonra necə olacağını proqnozlaşdırmaq çətindir: münasibətlər bu səviyyədə qalacaq, yoxsa daha da aşağı düşəcək”.**

Bunu Prezident İlham Əliyev mayın 3-də Şuşada keçirilən “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda çıxışında deyib.

”Bu bizim seçimimiz deyil. Amma bütün İran elitası artıq anlamalıdır: Azərbaycanla təhdid və terror dili işləməyəcək. Bunu nə qədər tez başa düşsələr, bir o qədər yaxşıdır”, - deyə dövlət başçısı vurğulayıb.

**Millət vəkili Fazil Mustafa da ”Şərq”ə açıqlamasında diqqətə çatdırıb ki, İran əzəli düşmənimiz Ermənistanı dəstəkləyir:** “Cənub qonşumuz açıq şəkildə sərhədlərimizdə təlimlər keçirmək, terror aktı törətmək və səfirliyimizə hücumla göstərməyə çalışır ki, mənim Azərbaycana qarşı münasibətim dəyişməz qalır. Prezident də açıq şəkildə ifadə edib ki, bizi heç bir terrorla qorxutmaq olmaz və istənilən gücün qarşısında dura bilərik.

Amma buna səbəbkar biz deyilik. Bu məsələnin açıq şəkildə dilə gətirilməsi isə ölkə başçısının siyasətdə nə qədər sərrast və prinsipial bir mövqe tutduğunu göstərir.

Çünki açıq tekstlə danışılmalıdır ki, ölkəmizin içi və kənarında İranın hərəkətlərinə haqq qazandırmaq istəyənlər, bu dövlətin Azərbaycana qarşı qərəzli və təhdideci addımları özünün seçdiyini anlasınlar. Azərbaycan da güclü bir dövlət kimi istənilən təhdidlərə cavab verməyə hazırdır”.

**Nihat Müzəffər**

# ABŞ-nin Azərbaycana təklifi Rusiyanı əndişəyə salıb

## Kreml ciddi şəkildə narahatdır və prosesləri əngəlləyərək öz diktəsini yeritməyə çalışır



**“Qarabağla bağlı vəziyyətin həlli üçün Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladıqları üçtərəfli bəyanatların alternativi yoxdur”.**

**Bunu Kremlin sözçüsü Dmitri Peskov mayın 2-də jurnalistlərə açıqlamasında deyib.**

O bildirib ki, problemlərin həlli və gərginliyin azaldılması ancaq üçtərəfli sənədlər əsasında mümkündür: ”Əlbəttə, gərginliyin azaldılmasına töhfə verəcək istənilən addım alqışlanmalıdır, amma üçtərəfli sazişin alternativi yoxdur”.

**Peskovun açıqlamasını ”Şərq”ə dəyərləndirən hərbi-siyasi ekspert Həşim Səhrablı söyləyib ki, Qarabağ probleminin yaradıcısı və idarəedicisi Moskvadır:** ”Hələ 1922-ci ildə Qarabağ muxtar vilayətinin yaradılması ilə Rusiya bu problemin əsasını qoydu. Ondan sonrakı proseslərdə isə ortalığı qatmağa davam etdi. Düzdür, o vaxtı bu SSRİ adlı bir imperiya idi. Amma faktiki idarəçi rus sovinizmi və Kreml olub. Bu gün də Rusiyanın siyasət xəttində heç nə dəyişməyib. Onlar hələ də Qarabağ məsələsindən istifadə edərək Cənubi Qafqazda təsir gücünü qorumağa və dövlət maraqlarını təmin etməyə çalışırlar. Paraleldə ABŞ-nin atdığı addımlara baxdıqda isə görürük ki, Qərb dövlətləri hər nə qədər maraqlarını ön planda tutsalar da, Azərbaycanla istəkləri və ideyaları üst-üstə düşür. Çünki hər iki tərəf problemin sona çatmasını və tranzit yollarının açılmasını istəyir. Belə olduğu təqdirdə bölgədə gediş-gəliş və ticarət üçün canlanma yaranacaq.

Düzdür, Qərbin yanaşması Qarabağ məsələsi kimin xeyrinə olursa olsun, başa çatsın formasındadır. Lakin Azərbaycan yenə də beynəlxalq hüququ ön planda tutaraq, öz suverenliyinin təmin edilməsinə çalışır. Artıq biz Qərbdə də buna qarşı fikirlər səsləndirildiyini görmürük. Halbuki 10-15 il əvvəl erməni sevdası qabarıq şəkildə göstərilirdi. Bu gün erməni lobbisinin təsiri ilə bu dəstək mövcud olsa da, əvvəlki səviyyədə deyil”.

**Ekspertin sözlərinə görə, bunların fərqində olan Moskva anlayır ki, Qərbin bu addımları uğurla nəticələnərsə, Rusiyanın bölgədə heç bir təsiri qalmayacaq:** ”Yəni Azərbaycanın suverenliyi daxilində Qarabağ məsələsi başa çatdıqdan sonra sülhə nail olunarsa və iki dövlət arasında münasibətlər normallaşarsa, Rusiya manipulyasiya gücünü itirəcək. Hətta sülh prosesi onun nəzarətindən kənarda baş tutduğu üçün, Rusiya Qərbə uduzacaq. Rusiya da bunu istəmir. Bu səbəblə də Moskva prioritet olaraq Azərbaycan, Ermənistan və Rusiya tərəfindən bağlanmış müqavilələri ön plana çıxarır. Çünki bu müqavilələr əsasında sülh bağlansa, hər şey Rusiyanın nəzarəti və istəkləri altında həllini tapacaq. Məsələlərin həllindən sonra isə Kreml yenidən təsir vasitələrini qoruyub saxlamış olacaq. Azərbaycan isə Qərb və Rusiyanın təsirinə məruz qalmaq istəmir.

Rəsmi Bakının əsas qayəsi problemin birdəfəlik başa çatmasıdır. Azərbaycanın bu marağına cavab verən alternativ isə ABŞ tərəfindən təklif edilir. Ona görə də Rusiya ciddi şəkildə narahatdır və prosesləri əngəlləyərək, öz diktəsini yeritməyə çalışır”.

**Nihat Müzəffər**

# Aprel ayında zəhərlənmələrdən 9 nəfər həyatını itirib

## Ən təhlükəlisi keyfiyyətsiz dərmanlardır



**Son dövrlər Azərbaycanda zəhərlənmə halları hədsiz çoxalıb. Son bir ay ərzində 3 orta məktəbdə kütləvi zəhərlənmə baş verib. Dünən isə aprel ayı ərzində Kliniki Tibbi Mərkəzə (KTM) zəhərlənmə ilə bağlı 625 nəfər müraciət edib, onlardan 9-u ölüb. Mərkəzin Mətbuat xidmətindən "Şərq"ə verilən məlumata görə, onlardan 119-u toksikologiya şöbəsinə qəbul edilib, digərlərinə isə ilkin tibbi yardım göstərilərək evə buraxılıb.**

Qəbul olunan xəstələrdən 54-ü dərmandan, 37-si sirkə turşusundan, 6-sı etanoldan, 6-sı ilan sancmasından, 2-si göbələkdən, 1-i arı sancmasından, 1-i dəm qazından zəhərlənib. Digərlərindən 9-u allergik reaksiya, 2-si botulizm, 1-i isə anaflaksiya səbəbindən xəstəxanaya yerləşdirilib.

Zəhərlənən şəxslərin 60-ı kişi, 40-ı qadın, 19-u isə uşaq olub. Həkimlərin səylərinə baxmayaraq, 6 nəfər sirkə turşusundan, 1 nəfər komatoz vəziyyətdən, 1 nəfər etanoldan, 1 nəfər botulizmdən dünyasını dəyişib. Dünyasını dəyişən şəxslərdən 8-i kişi, 1-i qadındır.

Qeyd edək ki, dərmandan zəhərlənən şəxslərin daha çox olması xüsusi diqqət çəkir. Tibb elmləri doktoru, professor Adil Qeybullanın fikrincə, dozadan artıq qəbul edilən hər bir dərman preparatı zəhər, toksik maddədir. Onun sözlərinə görə, dərmandan zəhərlənmə statistikasında iki kateqoriyalı məsələni ayırd etmək lazımdır: "Birinci kateqoriyalı məsələ odur ki, dərmanlardan zəhərlənmə qəsdənmi baş verir? Yəni xəstə bilərəkdən çoxlu sayda həblər qəbul edərək özünə qəsd edir,

### Turşuya qoyulan məhsulların hazırlanmasında da qaydalara riayət olunmur

yoxsa sadəcə, normal dozanı qəbul edib zəhərlənir? Bu ikisi fərqli-fərqli şeylərdir. Biri kriminal haldır, digəri isə dərmanlarla bağlı baş verən haldır. Ola bilər ki, dərman maddəsinin keyfiyyət parametrləri aşağıdır və həmin dərman maddələri qəbul olunduqda zəhərlənmə baş verir. Mümkündür ki, həmin həblərin tərkibindəki dərman əlavəsi və sair aşağı keyfiyyətdə olsun. Məsələn, bəzən bu, əlavə ağır metal duzlarından və sair ibarət olur, ondan da zəhərlənmə baş verir. Bu, bir variantdır. Digər variant isə odur ki, dərman vasitəsini xəstə müalicə məqsədilə qəbul edir və zəhərlənir. Yəni bu da dərman vasitəsinin yad təsirindən qaynaqlanır. İstənilən halda dərman maddələrinin keyfiyyət parametrlərinə bağlı olan zəhərlənmələr əlbəttə ki, ciddi araşdırılmalıdır. Bu dərman maddələrini gətirən firmalar, onun istehsal olunduğu yer, bütün bu məsələlər ciddi araşdırılmalıdır və məsuliyyət daşıyan şəxs cəzalandırılmalıdır. Bir insan özünə qəsd etmək üçün bunu edirsə, artıq bu, başqa araşdırılmalı məsələdir. Amma keyfiyyətsiz bir dərmandan zəhərlənmə dərman təhlükəsizliyi prinsiplərinin pozulmasıdır və buna görə də məsul olan şirkətlər, firmalar məsuliyyət daşıyır. Təəssüflər olsun ki, bu məsələlər müəyyən korporativ maraqlara görə araşdırılmır".

Qida ilə bağlı zəhərlənmələrə gəldikdə isə qida mütəxəssisi Ağa Salamov "Şərq" ə açıqlamasında bildirib ki, sirkədən zəhərlənmə turşular düzgün bağlanmadıqda, turşuya qoyulan məhsulların sanitariya-gigiyena qaydalarına riayət olunmadıqda, yaxud içinə çiy su getdikdə baş verir: "Bəzən çürük, bir tərəfi çartlaq tərəvəzləri duza qoyurlar. Saxlanma şəraitinə diqqət edilməli, otaq temperaturunda, gün şüalarından kənarda saxlanmalıdır. İndi turşudan istifadə etməyin vaxtı deyil. Hazırda tərəvəzlərin mövsümü olduğu üçün onu təbii yemək daha faydalıdır".

A.Salamovun sözlərinə görə, göbələk saxlanma şəraitinə nəzarət olunmadıqda qalıb şirə salır: "Həmin göbələyi də toyuq, makaron məhsulu ilə bişirdikdə zəhərlənmə halları ilə nəticələnir. Çünki makaron da risklidir, yumurtalı undan hazırlanır. Şampinyon göbələyi mədəniləşdirilmiş formada yetişdirilir və satılır. Zəhərlənmə verə bilməz. Qarşıdan yay ayları gəlir. İnsanlar daha ehtiyatlı davranmalıdır. Yumurta, mayonez, qaymaq, toyuq, dəniz məhsulları və onlardan hazırlanan salatlar, yeməklər təhlükəlidir. Riskli qidaların mənşəyi məlum olmalıdır. Onu da deyim ki, zəhərlənmələrin başında kimyəvi dərmanlarla yetişdirilmiş meyvə, tərəvəz dayanır. Mövsümündən əvvəl satılan məhsulların tərkibində nitrat səviyyəsi çox olur. Bu da zəhərlənmə hallarına səbəb olur. Xiyar, pomidor, qarpız kimi tərəvəz və giləmeyvələrin vaxtından əvvəl yeyilməsi də ağır fəsadlara gətirib çıxarır".

Şəymən




**Türkiyənin məşhur alış-veriş saytı olan "Trendyol"a daxil olarkən Azərbaycan istifadəçilərinə yeni seçim imkanı təklif edilir.**

# "Trendyol" Azərbaycan bazarına ciddi təsir edəcək

## Kiçik karqo şirkətlərimiz üçün rəqabət çox çətinləşəcək

Təklifdə "Trendyol" sifarişlərini artıq Azərbaycan adresində təslim almaq mümkündür" seçimi yer alıb.

Yeniliklə vətəndaşlar Azərbaycan nömrəsi ilə qeydiyyatdan keçərək, sifarişi "Trendyol" saytından izləyə bilərlər. Eyni zamanda sifarişçi adres olaraq öz ev ünvanını qeyd edərək, malın evinə təslim edilməsini seçə bilər. Qeyd edək ki, indiyədək "Trendyol"un Azərbaycana birbaşa çatdırılma xidməti yox idi.

**Dəyişikliyi şərh edən Azərbaycan İnternet Forumunun Prezidenti Osman Gündüz "Şərq"ə açıqlamasında deyib ki, "Trendyol"un Azərbaycana gəlişi çoxdan gözlənilən idi. Əsas məsələ bu anlaşmanın Azərbaycan bazarına təsiri ilə bağlıdır:** "Trendyol" kimi nəhəng, bazar təcrübəsi olan və məşhur bir e-ticarət platformasının Azərbaycan bazarına daxil olması ekosistemin inkişafı baxımından, yeni e-ticarət mədəniyyətinin formalaşması, xidmətlərin daha sürətli əldə edilməsi, innovasiyaların və texnologiyaların tətbiqi, əlçatanlıq, daha rahat alış-veriş şəraiti, müştəri loyallığı və güvənlik baxımından müsbət addım olaraq dəyərləndirilə bilər.

Amma onu da qeyd edim ki, yalnız "Trendyol"a istiqamətlənən onlarla yerli, kiçik karqo şirkətlərimiz üçün rəqabət çox çətinləşəcək. Güman etmək olar ki, onların çoxu, digər bazarlara çıxış imkanı qazanmasalar, rəqabətə tab gətirməyəcək və bağlanmaq təhlükəsi ilə üzləşə biləcəklər. Xatırladıram ki, son 2-3 ildə bu tip karqo şirkətlərin sayı 200-ə çatmışdı.

*"Güman etmək olar ki, onların çoxu digər bazarlara çıxış imkanı qazanmasalar, rəqabətə tab gətirməyəcək və bağlanmaq təhlükəsi ilə üzləşə biləcəklər"*

Əslində digər xidmətlər təqdim etməyən, yalnız "aralıq" funksiyası göstərən bu tip şirkətlərin nə zamansa təhlükə ilə üzləşəcəyi proqnozlaşdırılan idi. Düşünürəm ki, nisbətən böyük karqo şirkətləri, "Trendyol"dan fərqli olan mağaza və platformalar üzərindən də xidmət göstərənlər, dəyişikliyə uyğunlaşmaqla, yeni bazarlar əldə etməklə və innovasiyaları genişləndirməklə rəqabətə davam gətirə biləcəklər".

O.Gündüzün sözlərinə görə, "Trendyol.com"a daxil olmaq istəyənlər "Trendyol.az"a yönləndiriləcək: "Maraqlısı odur ki, vətəndaşlarımız burada əvvəlki qaydada sərfəli olan köhnə qiymətlərlə rastlaşacaqlar, yoxsa "Trendyol" Azərbaycan bazarı üçün yeni, baha qiymətlər müəyyən edəcək ? Onu da deyim ki, Azərbaycan bazarında olan bəzi brendlərin "Trendyol" vasitəsilə satışında məhdudiyyətlərin olacağını indidən proqnozlaşdırmaq olar. Ümumiyyətlə, qiymət siyasətinin necə olacağını güman ki, yaxın zamanlarda görəcəyik. Ümid edirik ki, daha sərfəli və ağlabatan qiymətlər olacaq".

Şəymən

# O, təmənnasız kömək edənlərdəndir...



**Redaktorlarımdan biri, İmdad Əlizadə "Report" İnformasiya Agentliyində tanıdığım ilk adam olub. Onun hələ adını eşitdiyim, amma üzünü görmədiyim vaxtlarda ozamankı redaktorlarım Anar Bayramoğlunun, Ayyət Əhmədin İmdad müəllim haqqında fikirlərini öyrənmişdim. İkisi də İmdad Əlizadəni çoxdan tanıdıqlarını bildirmiş, haqqında xoş sözlər demişdilər.**

Onu tanıyan başqa media adamları, ictimaisiyasi şəxslərlə söhbətimdə də İmdad müəllim haqqında həmişə müsbət fikirlər eşitmişəm.

Zamanla məlum oldu ki, bu təəssüratlar təsadüfi deyil. Çünki İmdad Əlizadə peşəkar jurnalist, bacarıqlı redaktor olmaqla yanaşı, həm də zəruri insani keyfiyyətlərin bir çoxuna malikdir. Səbirlidir. Anlayışlıdır. Deməli olar, səs tonunu yüksəltdiyini görməmişəm. İnsanı stimullaşdırmağı, həvəsləndirməyi yaxşı bacarır. Görülən işə qiymət verir. Bəzən gərgin iş gününün sonunda əməkdaşlara "çox sağ olun, bu gün əla işlədiz" deməklə növbəti gün də işə həvəslə gəlməyə şərait yaradır. Əlbəttə, bunlar həm də onun ixtisasca psixoloq olmasından irəli gəlir.

Şübhəsiz, iş olan yerdə səhvlər də olur. Xüsusilə bəzən informasiya yağış kimi üstünə yağırsa, tələskənliyə, diqqətsizliyə yol verməyin mümkündür. Sözsüz ki, İmdad müəllim məsul şəxslərdən biri kimi həmin anlarda irad bildirir. Ancaq bu tənqid daha çox tövsiyə xarakterli olur və psixologiya dili ilə desək, bədxassəli yox, məhz xoşxassəli aqressiyaya səbəb olur.

Tanıyanlar bilirlər ki, ağlım kəsəndən həm jurnalist, həm müəllim olmaq istəmişəm. Çünki onların söhbətləri ilə böyüdüyüm babalarımdan biri Əməkdar jurnalistdir. Digəri isə uzun illər ali məktəbdə dərs deyib. Onların hər ikisinin yollarını davam etdirmək istəyirdim. Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə qəbul olandan sonra burada gördüyüm mühit, tanıdığım insanlar isə məni sözügedən mühitə bir az da bağladı.

Magistratura təhsil pilləsini başa vuranda bir dəfə dediyim kimi, Jurnalistika fakültəsini üçüncü dəfə fəth etmək istədim. Müəllimlərim etimad göstərdi, şərait yarandı. Həmin vaxt birinci redaktorumla - İmdad müəllimlə məsləhətləşdim. Konkret gün və saatda universitetə getmək üçün icazə istədim. "Yox" desə idi, yəqin ki, növbəti dəfə nə özümə, nə də başqa rəhbər şəxsə müraciət edərdim. Lakin icazə verdi. Necə ki, magistraturada oxuduğum vaxt da gedib-gəlməyimə şərait yaradır, "oxuyana dəstək olmaq lazımdı" deyirdi.

Yeri gəlmişkən, qeyd edim ki, İmdad müəllim fakültəmizin doğma adamlarından birinə çevrilib. Bir neçə dəfə dərsdə qonağımız olub. Eyni zamanda həm də tələbələrimizə - bəlkə, üzünü görmədiyi, səsini isə ilk dəfə eşitdiyi şəxslərə. Çünki İmdad Əlizadə təmənnasız kömək edənlərdəndir.

Dünən dördüncü kursda oxuyan tələbələrimizdən birinin diplom işinin ilkin müzakirəsi idi. "Report" İnformasiya Agentliyini başqa bir media orqanı ilə müqayisə etmiş, konkret statistikalar ortaya qoymuşdu. Diplom işi kifayət qədər dolğun idi. Hər kəs - müzakirədə iştirak edən bütün professor-müəllim heyəti bəyəndi. Tələbəmiz maksimum balla qiymətləndirildi. Yeni 50 bal aldı. İlkin müdafiədən sonra sevinclə mənə yaxınlaşdı, "Çox sağ olun" dedi. "İmdad müəllimə təşəkkür elə, mən heç nə etməmişəm" deyəndə belə cavab verdi:

- Danışırıq. Çox kömək elədi. Allah ondan razı olsun.

İkiqat sevindim, ikiqat fərəhləndim: İmdad müəllim sözümü yerə salmayaraq əlindən gələni etmiş, diplomçumuz isə yaxşı çalışmışdı.

İmdad müəllimin yumor hissi ilə yanaşı, müşahidə qabiliyyəti də güclüdür. Bəzən elə bir zarafat edir ki, gərgin mühit dərhal aradan qalxır, hər kəs gülür. O, mimikadan, jestdən, səs tonundan qarşısındakı insanın əslində nə demək istədiyini anlaya bilir.

Bu günlərdə İmdad müəllimin - ondan həm də öyrənməkdə olduğum redaktorlarımdan birinin doğum günü idi. Bir daha təbrik edirəm, İmdad müəllim.

**P.S: Adətən mənə etimad göstərən, dəstək olan insanların, o cümlədən müəllimlərimin, rəhbər işçilərimin inamını doğrultmağa çalışıram. Sizin də etimadınızı doğrultmağa söz verirəm.**

Kənan Novruzov

# Payızda ətin qiyməti yenə bahalaşacaq

## Çünki heyvandarlıq üçün gərək olan örüş yerləri pambıq sahələri ilə əvəzlənib



**Payızda yeni qiymət artımı gözlənilir. Bu barədə "Şərq"ə iqtisadçı Pərviz Heydərov bildirib. İqtisadçı qeyd edib ki, payızda ətin qiyməti qalxacaq: "Bunun səbəbləri var.**

Ölkədə pambıqçılığa üstünlük verildi, bu sahəyə diqqət ayrıldı. Heyvandarlıq üçün gərək olan örüş yerlərini pambıq sahələri əvəzlədi. Kənd yerlərində insanlar heyvandarlıqla məşğul ola bilmir, çünki örüş sahələri azdır. Malqara, ətlik heyvanların sayı azaldıqca, ətin qiymətinin qalxması da labüddüşr. Pambıqçılıq da lazımlı sahədir. Lakin bir sahəni dirçəltmək üçün başqa birini məhv etməklə kənd təsərrüfatında inkişafa nail olmaq mümkün deyil". İqtisadçı qeyd etdi ki, işğaldan azad edilmiş ərazilərimiz kənd təsərrüfatının, o cümlədən taxılçılıq və heyvandarlığın inkişafı üçün münbit şərait yaradır: "Amma burada risklərin minimuma endirilməsi vacibdir. Müharibə ehtimalının tamamilə aradan qalxacağı və minalanmış ərazilər tamamilə təmizlənəcəyi təqdirdə, bəli, Qarabağ zonasında kənd təsərrüfatının inkişafı üçün əsl perspektiv açılacaq. Qarabağ torpağı münbitdir, verimlidir. Amma o torpaqlardan planlı şəkildə, ciddi proqramlar işlənərək istifadə edilməlidir".

Məlahət

# 7 yaşlı uşağın ölümündə ana da suçludur?

## Jurnalist bir sıra iddialar səsləndirib



**"Sumqayıtda idman zalında ölən uşağın anasından gözüm su içməmişdi. Bu gün səhər mənə gələn zəngdən bir daha əmin oldum ki, bu qadın o manyak qədər uşağın ölümündə rol alıb".**

**"Şərq" xəbər verir ki, bu sözləri feysbukda tanınmış jurnalist Ləman Ələşrəfqızı yazıb.**

O, məşq zamanı aldığı ağrı xəsarətlərdən sonra dünyasını dəyişən 7 yaşlı uşağın anası ilə bağlı bir sıra iddialar səsləndirib: "Zəng edən köhnə tanışlarımdan biridir. Həyat yoldaşı hadisə yerinə ən tez yetişən polis əməkdaşlarından biri olub. O, nələr görüb, nələr.

Qadın deyir ki, müharibə iştirakçısı olan həyat yoldaşım 3 gündür özünə gələ bilmir. Körpənin cansız bədəni onun qucağında olub. Bədənində dişlək yerləri polis əməkdaşını şübhələndirib. Anasından soruşanda deyib ki, uşağımı əzizləyəndə onu belə dişləyirəm. Görüntülər ortaya çıxandan sonra ana adlı məxluq sözlərini dəyişib. Görüntülər isə tək paylaşılanlardan ibarət deyil. Uşağa işgəncə kadrları yenə var. Bəs bu şərəfsiz niyə məhz 7 yaşlı bu uşağı hədəf seçib? Bu sualın cavabı da məncə ana adlı o məxluqatdadır.

Qısası, "ana havalanıb", " bədbəxt, zavallı ana" ifadələrini yazanda heç tələsməyin. Bədbəxt 7 yaşlı o körpə idi, onu da Allah öz yanına apardı. Cinayətkarların cəzası isə ağır olmalıdır".

Samirə Ərəblinskaya

# Sosioloq valideynlərə çağırış etdi

## İdman həmişə sağlamlığın rəhni olmur



**"Uşaq gələcəkdə peşəkar idmanla məşğul olmayacaqsa, sərt fəndli idman növlərinə göndərmək doğru deyil".**

Bunu "Şərq"ə sosioloq Lalə Mehralı Sumqayıtda azyaşlı oğlanın idman məktəbində aldığı xəsarət nəticəsində dünyasını dəyişməsindən danışarkən deyib. Onun fikrincə, sağlam böyümək üçün yüngül - gimnastika, üzgüçülük kimi idman növləri kifayətdir: "İndi valideynlər çalışırlar ki, övladları müxtəlif məşğuliyyət növlərinə getsinlər. Doğrudur, ata-anaların çoxu bunu uşaqları evdə televizor və telefondan uzaq saxlamaq üçün fikirləşirlər. Amma uşaq hərşeyşünas ola bilməz. Ümumiyyətlə, övladı həm musiqi, həm idmana göndərmək doğru deyil.

Biri incəsənət, biri idman sahəsidir. İki fərqli istiqaməti birdən qavramaq mümkün deyil. Valideynlərin əksəriyyəti uşağını sadəcə özünü müdafiə edə bilsin, sağlam böyüsün deyə sərt fəndli idman növlərinə göndərirlər. Karate, boks kimi kobud idman növləri azyaşlı uşaqlar üçün təhlükəlidir. Nəticəsini baş verən üzücü hadisədən də gördük. Yaxşı bilirik, məşqlər zamanı uşaqları hansı yollarla ram etməyə, idmanı öyrətməyə çalışırlar".

*Qeyd edək ki, bir müddət öncə Sumqayıtda azyaşlı oğlan idman məktəbində aldığı xəsarət səbəbindən vəfat edib.*

Sücayət Mehti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi;**



# Azərbaycanda müstəqil fikrin inkişafı üçün möhkəm təməl var

## "Mətbuatımızın qayəsində cəmiyyətin inkişafına və tərəqqisinə xidmət amalı dayanır"

**Hər il mayın 3-ü Ümumdünya Mətbuat Azadlığı Günü kimi qeyd olunur. Dünyada ən qədim informasiya vasitəsi qəzetlər hesab edilir. Qəzet və jurnallar uzun illər ərzində bütün dünyada məlumat mənbəyi kimi istifadə olunub. Hazırda isə qəzet və jurnalları müasir dövrdə mobil telefonlar, televiziyalar və internet əvəz edir. Buna baxmayaraq, insanlar arasında çap mediasına hələ də böyük tələbat var.**

XX əsrin son onilliyində dünyada yaranmış siyasi reallıqları nəzərə alan müxtəlif ölkələrin jurnalistləri 1990-cı ilin fevralında Parisdə azad mətbuat prinsiplərinin maneəsiz yayılması və bəşəri bəlalara qarşı birgə mübarizənin zəruriliyini bildiriblər. 1991-ci il mayın 3-də UNESCO bu məramı ifadə etmiş sənədi - Namibiyanın Vinduk şəhərində qəbul olunmuş Bəyannaməni dəstəkləyib və həmin günü Ümumdünya Mətbuat Azadlığı Günü kimi qeyd etmək təklifini Birləşmiş Millətlər Təşkilatına göndərib. 1993-cü il dekabrın 20-də BMT Baş Məclisinin qərarı ilə mayın 3-ü Ümumdünya Mətbuat Azadlığı Günü elan olunub.

Müstəqil Azərbaycan dövləti də ölkədə insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi önəm verir. Azərbaycanda azad sözün cəmiyyət həyatında üstün yer tutması, maneəsiz yayılması üçün zəruri addımlar atılıb. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı dövr Azərbaycan mətbuatının inkişafında yeni mərhələnin başlanğıcı oldu. Ölkədə yeni tipli medianın formalaşması və möhkəmlənməsi üçün dəfələrlə ciddi tədbirlər həyata keçirilib, KİV üzərindən dövlət nəzarətinin götürülməsi və mətbuatın inkişafı üçün əlverişli mühit yaradılmağa başlanılıb. Ulu Öndər Heydər Əliyevin "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı ilə mətbuatda dövlət sirlərini mühafizə edən Baş idarənin ləğvindən və "Kütləvi informasiya vasitələri haqqında" qanunun qəbulundan sonra ölkə mətbuatının inkişafında yeni dövr başlayıb. Qəzet redaksiyalarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalistlərin dövlətin ali mükafatları, o cümlədən orden və medallar ilə təltif olunmaları dahi liderin mətbuatın inkişafına göstərdiyi diqqətin tərkib hissəsi olub. Ulu Öndər Heydər Əliyevin 1998-ci il avqustun 6-da imzaladığı Fərmanla ölkəmizdə mətbuat üzərində senzuranın aradan qaldırılması müstəqil KİV-in inkişafına təkan verib, milli mətbuatın inkişafında əsaslı dönüş yaradıb. 2003-cü ilin martın 15-də Azərbaycan Jurnalistlərinin I Qurultayında Mətbuat Şurasının yaradılması bu sahədə pərakəndəliyin aradan qaldırılmasına müsbət təsir göstərib. Jurnalistlərin Peşə Kodeksinin yaradılması isə media qurumları arasında problemlərin həllində mühüm rol oynayır. Ümummilli Liderin ölkə mətbuatına göstərdiyi qayğı Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilir. Ölkəmizdə jurnalistlərin mənzillərlə təmin olunması, müxtəlif orden və medallar, fəxri adlarla təltif edilməsi, Medianın İnkişafı Agentliyinin yaradılması, son olaraq isə "Media haqqında" yeni qanunun tətbiq edilməsi ölkəmizdə dövlətin azad mətbuatın inkişafına töhfələri kimi qiymətləndirilir.

Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet qəzetçilik inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Bütün dünyada gedən qloballaşma prosesi mətbuatdan da yan keçməyib. Bu gün yüzlərlə jurnalist beynəlxalq təşkilatların dəstəyi ilə təşkil olunan peşə artımı kurslarında treninq və təkmilləşmə kursları keçirlər. Peşəkar jurnalistlər ölkədə və onun xaricində baş verən ictimai, siyasi, mədəni hadisələri tam obyektiv işıqlandırır, onları təhlil edir və oxucuya qərəzsiz, düzgün çatdırırlar. Belə jurnalistlər ictimai-siyasi, iqtisadi, mədəni, elm və texnika sahələrindəki nöqsanları qərəzsiz mövqedən açır, göstərir və onların həlli istiqamətində araşdırmalar aparırlar. Dünən Azərbaycanda da "Azərbaycanda media azadlığı: plüralizm prinsipləri və vətəndaş cəmiyyəti quruculuğuna dəstək" mövzusunda konfrans keçirilib. **Mətbuat Şurasının sədri Rəşad Məcid mediamızın keçdiyi tarixi yoldan danışıb. O qeyd edib ki, bu gün hər kəs əlindəki mobil telefonla informasiya yayımçısı ola bilər. Lakin peşəkar jurnalistlər informasiya ilə davranmaq barədə cəmiyyətə nümunə olmalıdırlar. Daha sonra çıxış edən Medianın İnkişafı Agentliyinin icraçı-direktoru Əhməd İsmayılov bildirib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi iradəsi və böyük səyləri nəticəsində plüralizmi, söz və məlumat azadlığını məhdudlaşdıran süni maneələr aradan qaldırılıb.** Sonda Mətbuat Şurasının Ümumdünya Mətbuat Azadlığı Günü ilə bağlı bəyanatı yayılıb. Bəyanatda vurğulanıb ki, əsasını dahi mütəfəkkir Həsən bəy Zərdabinin qoyduğu Azərbaycan mətbuatının qayəsində cəmiyyətin inkişafına və tərəqqisinə xidmət amalı dayanır: "Müstəqillik illərində Azərbaycan mediası bu amalı rəhbər tutaraq fəaliyyət göstərib. Mediamız ötən müddətdəki inkişaf yolunda 3 may Ümumdünya Mətbuat Azadlığı Gününün təsisi ilə bağlı prinsiplərə də sadiqlik xətti götürüb, çalışıb ki, plüralist fikir cəmiyyətin müxtəlif qütblərinin maraqlarının ifadəçisinə çevrilsin. Azad sözə müstəsna dəyərin verildiyi ölkəmizdə bu baxışın təminatçısı qismində çıxış edən Azərbaycan dövlətidir. Ulu Öndər Heydər Əliyevin media siyasətini, onun jurnalistikaya diqqət və qayğı ənənəsindəki varislik prinsipini qoruyan, bu kursu fundamental əsaslarla zənginləşdirən Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər, eləcə də reallaşdırdığı islahat proqramları onu deməyə əsas verir ki, ölkəmizdə müstəqil fikrin inkişafı üçün möhkəm təməl var".

Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko deyib ki, mətbuat azadlığının qorunması və təşviq edilməsi heç bir sərhəd tanımayan universal missiyadır. Onun sözlərinə görə, KİV azadlığı, müstəqilliyi və plüralizminin qorunması demokratik sistemlərin dayanıqlığı və sağlamlığı üçün həyat əhəmiyyətli olsa da, hazırda dünyanın əksər yerlərində mətbuat azadlığı təhlükə altındadır: "İctimaiyyəti keyfiyyətli müstəqil informasiya ilə təmin edən, insan hüquqlarının kobud şəkildə pozulması hallarını və vəhşilikləri işıqlandıran və hakimiyyətdə olanları məsuliyyətə cəlb edən jurnalistlər, KİV əməkdaşları, digər şəxslər getdikcə daha çox böhtan, təhdid və hücumlarla üzləşir, o cümlədən dezinformasiyanın mənfi təsirinə məruz qalırlar". Mixalko qeyd edib ki, hücuma məruz qalmış Ukraynadakı müxbirlərin, Belarus və Əfqanıstandakı jurnalistlərin, Yaxın Şərq və Şimali Afrikadakı müstəqil medianın, Mərkəzi Amerikadakı yerli jurnalistlərin, Filippin və Rusiyadakı Nobel mükafatı laureatlarının və dünyanın, o cümlədən Avropanın bir çox digər media işçilərinin peşələri onlara baha başa gəlir. Səfir qadın jurnalistlərin də hüquqlarının qorunması məsələsinin vacib olduğunu vurğulayıb: "Qadın jurnalistlər təhdidlərə, həm kiberməkanda, həm də real həyatda artan hücumlara qarşı xüsusilə həssasdırlar. Onlar ictimai qınaq, cinsiyyətçi nifrət ritorikası, trollinq, cinsi və gender əsaslı zorakılıqla üzləşir və hətta qətl edilirlər. Qadın jurnalistlərin 73 faizi işlədikləri müddətdə onlayn təhdidlərə, pis rəftara və təqiblərə məruz qalıb. Biz indiki kimi bu qədər qadın jurnalistin həbsdə olduğunu görməmişdik". O, jurnalistlərə qarşı hər cür təhdidi, zorakılığı pislədiyini deyib.

**Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli "Şərq"ə açıqlamasında deyib ki, 3 may Beynəlxalq Mətbuat Azadlığı Günü 1991-ci ildə Vinduk Bəyannaməsinin qəbul edilməsi ilə qeyd olunmağa başlanılıb**. Onun sözlərinə görə, Vinduk Bəyannaməsinin mahiyyəti odur ki, jurnalistika və KİV subyektləri müstəqil, azad və təhlükəsiz fəaliyyət göstərməlidirlər: "Bu bəyannamə ilə jurnalistlərin təhlükəsizliyinə təminat verilib. Azad və müstəqil fəaliyyət göstərmələri qərara alınıb. Bəyannamənin qəbul olunması da səbəbsiz deyil. Bildiyimiz kimi, jurnalistika riskli peşələrdən sayılır. Təəssüf ki, jurnalistlər öz peşə fəaliyyətini təhlükəsiz və müstəqil şəkildə icra etməkdə çətinlik çəkirlər. Təsadüfi deyil ki, beynəlxalq jurnalist təşkilatlarının hesabatlarına görə, təkcə son 30 il ərzində dünyada 2800-ə yaxın jurnalist peşə fəaliyyətini icra edərkən qətlə yetiriliblər. Bu onu göstərir ki, jurnalist əməyi asan əmək deyil, təhdidlərlə, risklərlə dolu bir peşədir. Jurnalistlərin fəaliyyətlərinə ciddi təhdidlər olur. Təkcə qətlə yetirilmək deyil, həmçinin fiziki xəsarətlərin verilməsi halları baş verir. Minlərlə jurnalist təhdidlərə məruz qalıb, fiziki təzyiqlərlə üzləşib, həbsxanalara atılıb. Bunu nəzərə alaraq, Vinduk Bəyannaməsi qəbul olunub".

**M.Ələsgərli vurğulayıb ki, sevindirici haldır ki, Azərbaycanda jurnalistlərin təhlükəsiz, azad və müstəqil fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılıb:** "Əvvəlcə Konstitusiyamız, sonra qanunlarımız buna təminat verir. Yaxşı hal odur ki, Azərbaycanın siyasi hakimiyyəti də medianın inkişafı, müstəqil, azad və təhlükəsiz fəaliyyət göstərməsi üçün qayğısını əsirgəmir, töhfələrini verir. Azərbaycan yeganə ölkələrdəndir ki, burada KİV-in inkişaf etməsi, jurnalistlərin sosial qayğılarının aradan qaldırılması üçün də xüsusi konsepsiya da qəbul olunub. KİV-in inkişafına dövlət konsepsiyası fəaliyyət göstərir. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan jurnalistikanın azad fəaliyyət göstərməsi üçün münbit ölkələrdən biridir. Arzu edək ki, dünyanın bütün ölkələrində jurnalistlərin azad, müstəqil və təhlükəsiz fəaliyyəti təmin olunsun".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Ukrayna ordusu Rusiyanı yerində oturdacaq"

## "Onsuz da kollektiv Qərb proseslərini izləyir və nəzarətdə saxlayır"

**Ukrayna məxfi sənədlərlə bağlı ABŞ ilə daha az məlumat paylaşmağa başlayıb. Deyilənə görə, rəsmi Kiyev əks-hücum ərəfəsində növbəti sənədlərin işıqlandırılmasından çəkinir. Vaşinqtonda da etiraf ediblər ki, Ukrayna bu cür məlumatların paylaşılmasında həmişə ehtiyatlı olub.**



*"Onların vəzifəsi Ukrayna ordusuna hər sahədə dəstək verməkdir"*

Ağ Evin Milli Təhlükəsizlik Şurasının rəsmi nümayəndəsi Con Kirbi ukraynalıların məxfiliyi ilə bağlı suala belə cavab verib: "Onlardan bizi xəbərdar etmək və ya əvvəlcədən məlumatlandırmaq tələb olunmur". O, əlavə edib ki, ABŞ və Ukrayna rəsmiləri gündəlik təmasdadırlar, ona görə də Vaşinqton çox şeyi təxmin edə bilir. Kirbinin sözlərinə görə, hər şeyə rəğmən, ABŞ Ukraynanı real vaxt rejimində kəşfiyyat məlumatları ilə təmin etməkdə davam edir: "Biz əvvəlcədən xəbərdar olub-olmayacağımıza köklənmirik. Başlamağa hazır olana qədər onların ehtiyac duyduqları hər şeyə sahib olmasını təmin etməyə diqqət yetiririk". Qeyd edək ki, ABŞ-nin Ukrayna ilə bağlı məxfi sənədlər toplusu internetə sızıb. Sənədlərin birində münaqişənin vəziyyəti təsvir edilib, digərində isə formalaşmaqda olan 12 Ukrayna briqadası haqqında məlumatlar əks olunub. Pentaqon sənədlərlə bağlı dərhal araşdırmalara başlayıb.

**Politoloq Azər Qasımov "Şərq"ə bildirib ki, Amerikanın kəşfiyyat məlumatlarının və məxvi sənədlərinin mətbuata sızdırılması dəfələrlə təkrar olunub.** Analitik xatırladıb ki, sonuncu dəfə Culian Assancın külli miqdarda məxfi məlumatları yaymasının təsirləri hələ davam etməkdədir: "Bu dəfə də sızdırılan məlumatların əsasən Ukrayna əks-hücumu ərəfəsinə düşməsi, ordunun təşkili və silahlanması barədə məlumatların ifşası təbii olaraq Ukrayna hərbi komandanlığını narahat edib. Onları ehtiyatlı davranmağa məcbur qoyub. Çünki planlanan əks-hücum Ukraynanın taleyini həll edəcək. Əslində Kiyevin ehtiyatlı davranışı Rusiyanın Ukraynaya hücum etməsindən öncə var idi. Rusiyanın hücumu zamanı Ukrayna ordusunun göstərdiyi müqavimət əvvəlcədən hazırlanmışdı. Ukrayna hərbi komandanlığı Zalujnunun başçılığı ilə ordunun dislokasiya yeri təkcə Qərbdən yox, hətta dövlət başçısı V.Zelenskidən belə gizlədilib. Məlumatın sızmasından qorxublar. Görünən odur ki, şübhələr özünü doğrultmaqdadır. Sızdırılan məlumatları həm dezinformasiya yaymaq, həm də reallıq kimi qiymətləndirmək olar. Birinci halda məlumatları yaymaqla əks tərəfdə qorxu yaratmaq istənilə bilər. Digər yandan isə bunu rus kəşfiyyatı ilə də əlaqələndirənlər də var. Amma bu, az ehtimal olunan məsələdir. Çünki kəşfiyyat məlumatlarını adətən əks tərəfə qarşı istifadə edirlər, nəinki onu açıqlayırlar". Ekspertin sözlərinə görə, hücum ərəfəsində detalların paylaşılması doğru deyil və məlumatların gizli saxlanılması doğru qərardır: "Onsuz da kollektiv Qərb prosesləri izləyir və nəzarətdə saxlayır. Onların vəzifəsi Ukrayna ordusuna hər sahədə dəstək verməkdir. Eyni zamanda Zalujnu artıq özünü təsdiq etmiş komandandır. Ona inam böyükdür. Hesab edirəm ki, bu tipli problemlərə baxmayaraq, Ukrayna ordusu Qərbin də dəstəyi ilə aqressor Rusiyanı yerində oturdacaq".

**İsmayıl Qocayev**

# Dönərxanalar cəmiyyətin bəlasına çevrilib

## "1 kilo ət 17 manata, bir dönər 1 manata satılır"

**"20 ildən çoxdur ki, Azad İstehlakçılar Birliyi qeyri-ənənəvi heyvan ətləri (eşşək, at) biznesini ifşa etmək üçün işlər görür".**




Bunu "Şərq"ə adıçəkilən Birliyin sədri Eyyub Hüseynov Bakıda bəzi yerlərdə dönər və ayranın 1-1.50 AZN-ə satılmasından danışarkən deyib. Onun sözlərinə görə, bu sahədə ən uğurlu işi Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətlərə qarşı Mübarizə İdarəsi görür:

"Onlar digər dövlət orqanları - Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) kimi cərimə edib, azad etmir. Cinayət işi qaldırır, ekspertizaya göndərir, həbslər həyata keçirir. Nədənsə, Azərbaycan məhkəmələri qısa müddətdə insanları azad edirlər. Bu da diqqətimizdədir. Murdar ətə tələbat olduğu üçün mövcuddur. Tələbat da dönərxanalardadır. Bəzi restoranlarda, şadlıq evlərində də hər birimizin bu ətlərdən ən azı 1-2 dəfə yediyi istisna edilmir. Tələb olmasa, təklif olmaz. Ölkədə 15 mindən çox dönərxana var. 2006-ci ildə quş qripi meydana çıxanda Səhiyyə Nazirliyi quş ətindən hazırlanan dönərlərə qadağa qoydu. İki müəssisə yaradıldı, quş və ət dönərinin hazırlanmasına icazə verildi. Həmin müəssisələrdə -40 dərəcə dondurma sistemi var. Dondurulan ətlər xəstəliklərdən xilas olurlar. Xüsusi avtomobillərlə dönərxanalara gətirilir".

**E.Hüseynov diqqətə çatdırıb ki, AQTA-da 2 il İctimai Şuranın üzvü olub, dəfələrlə rəhbərliyin iştirak etdiyi yığıncaqlarda məsələnin monitorinqinin aparılmasını, araşdırılmasını təklif edib:**

"Lakin heç bir rasional nəticə əldə olunmayıb. AQTA qidanın keyfiyyətini yox, təhlükəsizliyini təmin edir. Dönərxanalar cəmiyyətin bəlasına çevrilib. İnsanların orta yaş həddinin azalmasına gətirib çıxarır. Nəticələri klinika, apteklərdə yaranan insan növbələrindən görə bilərik.

Həmçinin qonşu ölkələrin xəstəxanalarının azərbaycanlılarla dolu olduğunu da görmək mümkündür. Xüsusən də, dönərlərlə qidalanan gənclər əlbəttə, ciddi mədə-bağırsaq xəstəliklərinə tutulurlar. Bir həftə öncə Şri-Lankada oldum. Şri-Lanka üçüncü dünya ölkəsi hesab edilir. Azərbaycandan dəfələrlə aşağı səviyyədə yaşayırlar. Əhalinin gəliri bizimlə müqayisədə azdır. İnsanların qidaya və tibbi xidmətlərə əlçatanlığı çox ağır vəziyyətdədir. Lakin orta yaş həddi 75 ildir. Azərbaycanda isə 73 il.

Belə varlı ölkənin vətəndaşlarının orta yaş həddinin aşağı olmasına səbəb nədir?! Təbii ki, dönərlər, təhlükəli qidalar, ölmüş heyvan ətlərinin insanlara çatdırılması, yeyilməsi. Əlbəttə, ətin qiymətinin 15, 16, 17, 18 manat olduğu şəraitdə bükümü 1 manat olan dönər və ayranın təhlükəli qida olduğunu sübut edir. Təəssüf ki, AQTA bu sahədə heç bir iş görmək istəmir.

Əslində vəziyyəti dəyişmək mümkündür. Nümunəvi dönərxanaları ayıra bilər. Dönərxanaların bağlanmağının tərəfdarı deyiləm. Sadəcə onları müasir tələblərə uyğunlaşdırmaq lazımdır. Ona görə də adıçəkilən agentlik KİV-lə, ictimai təşkilatlarla, dövlət orqanlarının köməyilə mövcud problemi həll etməlidir. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" qanun 1995-ci ildə qəbul olunub. Artıq köhnəlib, müasir tələblərə cavab vermir".

*Qeyd edək ki, Bakıda bəzi yerlərdə dönər və ayran 1-1.50 AZN-ə satılır. Əsasən də, metroların giriş-çıxışında bu qiymətə dönərlərə rast gəlmək mümkündür. Toyuq ətinin kiloqramı 6-7 AZN, mal ətinin isə 14-15 AZN olduğu halda dönərlərin bu qədər ucuz qiymətə satılması sual doğurur.*

**Sücayət Mehti**



## 60 yaşı tamam olan müəllimlərə şad xəbər

### Sertifikatlaşdırmadan azad olunacaqlar

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında "Əmək Məcəlləsi" və bir sıra müvafiq qanunlara təklif edilən dəyişikliklər müzakirə edilib.**

Layihələr komitə tərəfindən dəstəklənib və plenar iclasa tövsiyə olunub. Dəyişikliklərə əsasən, ümumtəhsil müəssisələrində 60 və daha yuxarı yaşda olan şəxslərin sertifikatlaşdırmada iştirakı könüllüdür. Yəni dəyişikliklər qəbul olunandan sonra əgər orta məktəbdə çalışan müəllimin yaşı 60-dan çoxdursa, o, heç bir halda məcburi sertifikatlaşdırmağa cəlb edilə bilməz. Bu halda müəllim yalnız öz istəyi ilə sertifikatlaşdırmada iştirak edə bilər.

**Millət vəkili Vüqar Bayramov sertifikatlaşdırma prosesinin təkmilləşdirilməsi ilə bağlı bir sıra təkliflər irəli sürüb. Deputat deyib ki, müəllimlərin əməyinin keyfiyyət kriteriyası üzrə qiymətləndirilməsi müsbət hal olsa da, belə meyarların sayının artırılmasına ehtiyac var:** "Sertifikatlaşdırma əməyin dəyərləndirilməsi üçün yeganə meyar olmamalıdır. Əksər inkişaf etmiş ölkələrdə olduğu kimi, digər kriteriyalardan, o cümlədən sinif qiymətləndirmə yekunlarından istifadə olunmalıdır. İkincisi, sertifikatlaşdırmada differensial yanaşma daha məqsədəuyğun olardı. Mövcud qanunvericiliyə əsasən, müəllim 3 dəfə məcburi sertifikatlaşdırmadan keçməlidir. Amma sertifikatlaşdırmanın sayı və müddəti müəllimin topladığı nəticəyə diferensial uyğunlaşdırılmalıdır. Bu, müəllimlərin təşviqi baxımından da vacibdir. Məsələn, 80 faiz və daha çox nəticə göstərən müəllimlər üçün növbəti sertifikatlaşdırma 5 il deyil, daha uzun müddətdən sonra aparıla bilər. Və ya müəllim iki sertifikatlaşdırmada ardıcıl 80 faiz və daha yüksək nəticə göstərirsə, o zaman üçüncü sertifikatlaşdırmada iştirak onun üçün məcburi olmaya bilər. Əminik ki, sertifikatlaşdırmanın təkimilləşdirilməsi ilə əlaqədar da səmərəli fikir mübadiləsi aparılacaq".

**İsmayıl**

## "Kalaşnikov" avtomatları ölkəyə necə keçirilir?

### Politoloq sualı əlaqədar qurumlara ünvanlayır

**Qobustan Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat zamanı üzərində qanunsuz odlu silah gəzdirən şəxs tutulub. Bu barədə "Şərq"ə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Şəki regional qrupundan məlumat verilib.**



Bildirilib ki, daxil olmuş əməliyyat məlumatı əsasında keçirilən tədbir zamanı Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Baba Sadıqov şübhəli şəxs qismində polis əməkdaşları tərəfindən saxlanılıb. Onun sərnişin qismində olduğu avtomobilə baxış keçirilən zaman "Kalaşnikov" markalı avtomat, 40 ədəd patron və 1 ədəd daraq aşkar edilərək götürülüb. Araşdırma zamanı saxlanılan şəxsin sosial şəbəkədə tanış olduğu İran vətəndaşı tərəfindən kuryerliyə cəlb edildiyi müəyyən olunub.

Belə ki, Baba Sadıqov ifadəsində pul qarşılığında həmin silah-sursatı Qobustan rayonundan Bakı şəhərinə aparmağa razılaşdığını bildirib.

Faktla bağlı Qobustan Rayon Polis Şöbəsində cinayət işi başlanılıb, saxlanılan şəxsin ətrafında zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, qanunsuz silah gəzdirən şəxslərin sayı artıb. Ekspertlər isə hesab edir ki, qanunsuz odlu silah saxlama və silah qaçaqmalçılığının miqyasını təxmin etmək çox çətindir və qeyri-qanuni silah alveri onilliklər ərzində problem olaraq qalacaq.

**Politoloq Azər Rəşidoğlu da "Şərq"ə açıqlamasında deyib ki, qanunsuz silahların vətəndaşlar arasında yayılması, onların qeydiyyata alınmaması ciddi problemdir. Bu baxımdan, hüquq-mühafizə orqanlarının belə hallara qarşı mübarizəsi anlaşılan və təqdirəlayiqdir:** "Həmin silahların İrandan və yaxud başqa ölkədən gətirilməsi, kimə məxsus olmasını demək üçün istintaq materialları ilə tanış olmaq lazımdır, bu barədə məlumata malik deyiləm, bir söz deyə bilmərəm. Hansısa ölkə Azərbaycana qarşı diversiya və terror hazırlayırsa, bunun qarşısını almaq üçün Azərbaycanın imkanları böyükdür. İnanmıram ki, "Kalaşnikov" avtomatları ilə ölkədə sabitliyi pozmaq mümkün olsun, bu istiqamətdə bədxahlarımızın başqa planları ola bilər və əminəm ki, hüquq-mühafizə orqanları bunun qarşısını almaq gücündədir. Belə avtomatlar ayrı-ayrı kriminal qruplar arasında yayıla bilər və bu, ölkədə kriminogen duruma təsir göstərə bilər. "Kalaşnikov" avtomatları ölkəyə necə keçirilir" sualı ciddi sualdır və buna cavab vermək üçün səlahiyyətim və məlumatım yoxdur. Mən də bu sualı əlaqədar qurumlara ünvanlayıram - "Kalaşnikov" avtomatları ölkəyə necə keçirilir?".

**Şəymən**

## "Məni sürüyə bilməzsən"

### Jurnalist Əməkdar artisti özündən çıxarıb



**Əməkdar artist Mehriban Xanlarova və jurnalist Anar Vəziroğlu arasında dava düşüb.**

"Şərq" xəbər verir ki, onların "Bizimləsən" proqramında qonaq olarkən sözləri çəp gəlib.

Buna səbəb isə A.Vəziroğlunun iştirakçılardan birini tənqid etməsi olub:

"Üzeyir Hacıbəyov kimi dahi insan heç yerdə demədi ki, mən Üzeyir Hacıbəyovam. Niyazi rəhmətlik də onun kimi, Şövkət Ələkbərova başı aşağı gəzirdi. Nə Əməkdar artistsən, nə Xalq artistisən, heç nə deyilsən, deyirsən ki, Roza kimdi, filankəs kimdir. İddian aşağı olsun, sən dağıdırsan".

**M.Xanlarova isə onunla razılaşmayaraq özündən çıxıb:** "İddialı ol. Səsin var? Bəli. Bu kişinin qızının səsi var, haradan desən, oradan oxuyur. Mən Mehriban Xanlarovayam gedirəm, çıxsın qarşıma bir aktrisa. Mən mənəm".

Bu zaman A.Vəziroğlu  Xanlarovanı nəzərdə tutaraq "Bunun verdiyi tövsiyə belə olacaq. Mən jurnalistəm, onu yıxıb-sürüyün", - deyə bildirib.

Aktrisa jurnalistin bu sözlərinə daha da qəzəblənib: "Sən məni sürüyə bilməzsən. Bəlkə ona gücün çatar, mənə yox".

**Samirə Ərəblinskaya**

**Elanlar**

"SHIRZAD LOGİSTİC SERVİCES" Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus (VÖEN 1604862851) möhür itdiyi üçün etibarsız sayılır.

Hörmətli səhmdarlar,

Diqqətinizə çatdırmaq istəyirik ki, 21 iyun 2023-cü il tarixdə saat 11:00-da Bakı şəhəri, AZ1065 Bakı şəhəri, "Caspian Plaza", 18-ci mərtəbə, 2-li otaq, "Marie Curie" zalı ünvanında "İsmayıllı Şərab-2" ASC-nin Səhmdarların növbəti Ümumi Yığıncağı keçiriləcəkdir. Yığıncaqda aşağıdakı məsələlərin müzakirəsi nəzərdə tutulmuşdur:

1. Cəmiyyətin 2022-ci il üzrə maliyyə göstəricilərinin auditinə dair hesabatın təsdiqi
2. Cəmiyyətin auditinin həyata keçirilməsi üçün kənar audit şirkətinin təyin edilməsi
3. Cəmiyyətin  İdarə Heyətinin tərkibinin dəyişikliyi
4. Borc müqavilələrinin təsdiqi
5. Kredit xəttinin açılması və kredit müqaviləsinin təsdiqi
6. İdarə Heyəti sədrinin əmək müqaviləsinin şərtlərinin dəyişməsi
7. Yığıncağın gündəliyində duran digər məsələlər.

Yığıncaqda iştirak etmək üçün şəxsiyyət vəsiqəsi və müvafiq səlahiyyət təsdiqedici sənədləri təqdim etməyiniz xahiş olunur.

Gündəlikdə duran məsələlər üzrə materiallar elektron poçt vasitəsilə göndəriləcəkdir.

"İsmayıllı Şərab-2" ASC-nin İdarə Heyəti

## Mətbuat xidməti rəhbərlərinə master-klass təşkil olunub

**Media Təhlil Mərkəzinin (MTM), Heydər Əliyev Mərkəzinin, Medianın İnkişafı Agentliyinin, ADA Universitetinin dəstəyi və "MAS" MMC-nin texniki köməkliyi ilə dövlət, qeyri-hökumət və digər təşkilatların mətbuat xidmətlərinin rəhbərləri üçün növbəti dəfə master-klass təşkil edilib.**



"Şərq" xəbər verir ki, master-klassın keçirilməsində əsas məqsəd mətbuat xidmətlərinin rəhbərlərinin işini daha da təkmilləşdirmək, onların fəaliyyətini müasir kommunikasiya sistemlərinə uyğunlaşdırmaq və şəffaflığı təmin etməkdir.

Açılış nitqi ilə çıxış edən Azərbaycan Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin əməkdaşı Cəmalə Əliyeva deyib ki, təlimin məqsədi ölkədə həyata keçirilən media və kommunikasiya islahatlarına töhfə vermək, kommunikasiya sahəsinin hazırkı dinamik mühitdə inkişafını təşviq etmək, kommunikasiyaya məsul şəxslərin bilik və bacarıqlarını daha da təkmilləşdirməkdir.

O bildirib ki, layihənin hədəfi Azərbaycan jurnalistlərinin, xüsusilə də mətbuat xidmətlərinin rəhbərlərinin bacarıqlarının daha da təkmilləşdirilməsinə və inkişafına töhfə verməkdir.

Medianın İnkişafı Agentliyinin icraçı-direktoru Əhməd İsmayılov söyləyib ki, dövlət qurumlarının mətbuat xidmətləri üçün təlimin təşkilində əsas məqsəd ictimaiyyətlə əlaqələrə məsul şəxslərin peşəkar bacarıqlarının təkmilləşdirilməsi və inkişaf etdirilməsi, kommunikasiya sahəsində ən son tendensiyaların və qabaqcıl təcrübələrin öyrənilməsidir.

Ə.İsmayılov vurğulayıb ki, təlim qurum və təşkilatların kommunikasiya siyasətinin təhlili və tədqiqi, uğurlu modellərin araşdırılması, faydalı metodik mexanizmlərin və texnikaların müəyyən edilməsi, PR menecerlərin fəaliyyətinin səmərəliliyinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

O qeyd edib ki, strateji planlaşdırma mətbuat xidmətlərinin rəhbərləri üçün çox vacibdir. Rəqəmsal mediada məlumatların toplanması, öyrənilməsi hazırkı dövrdə əhəmiyyətli məsələdir. Bu səbəbdən də mediada davamlı inkişafa nail olmaq üçün yenilikləri öyrənmək lazımdır.

Media Təhlil Mərkəzi yerli media nümayəndələrinin, xüsusilə də mətbuat xidmətlərinin rəhbərlərinin peşəkar bacarıqlarının təkmilləşdirilməsinin və inkişafının vacibliyini, bu sahədə effektivliyin artırılmasının zəruriliyini nəzərə alaraq beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir.

Bu əməkdaşlıq çərçivəsində artıq ikinci dəfə baş tutacaq master-klassı London Universitetinin jurnalistika üzə professoru, "The Media Society" təşkilatının vitse-prezidenti, İcmalar Palatasında media məsləhətçisi kimi çalışan Barni Cons və qlobal kampaniyaların, mürəkkəb məsələlərin idarə edilməsi sahəsində təcrübəli kommunikasiya və marketinq üzrə müt?xəssis Tobi Orr aparacaq. Müxtəlif sessiyaları əhatə edəcək 3 günlük təlim mayın 3-5-də ADA Universitetində keçiriləcək. İştirakçılar müsahibələr yolu ilə fərqli və peşəkar müzakirələrə qoşulacaq, sosial media təşəbbüslərinin inkişaf etdirilməsi ilə bağlı praktiki sessiyalarda iştirak edəcəklər.

Sonda iştirakçılara sertifikatlar təqdim olunacaq.

## "Heydər Əliyev və türk dövlətləri ilə əlaqələrin istiqamətləri"

### ADU-da bu mövzuda tələbə-şagird konfransı keçirilib



**Mayın 2-də Azərbaycan Dillər Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100  illiyinə həsr olunmuş "Heydər Əliyev və türk dövlətləri ilə əlaqələrin istiqamətləri" mövzusunda tələbə-şagird elmi konfransı keçirilib. Əvvəlcə tədbir iştirakçıları Universitetin foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar.**

ADU-nun rektoru, akademik Kamal Abdulla tələbələrin və şagirdlərin yeni elmi biliklərin əldə olunması baxımından konfransın əhəmiyyətindən danışıb.

Qeyd olunub ki, konfransın keçirilməsi hər bir tələbə üçün yeni elmi araşdırmaların aparılması, elmi təcrübələrin qazanılması üçün əlverişli imkanlar verir: "Bu gün tarixi bir gündür. Bu günün əhəmiyyəti ondan ibarətdir ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunan konfransın açılış mərasiminə toplaşmışıq. Gənclər, tələbələr Ulu Öndər Heydər Əliyevin bizə əmanətidir. Biz bu əmanətə daima sadiq qalacağıq. Mən bunu hər zaman qeyd edirəm. Tələbələrin savadlı və peşəkar olması vacibdir. Tələbələrin dövlətimiz üçün, Vətənimiz üçün daha faydalı vətəndaş kimi formalaşması qarşıya qoyulan əsas məqsədlərdən biridir. Buna görə də hər biriniz öz işinizdə faydalı olmalı, dövlətimizin, millətimizin parlaq gələcəyi naminə yorulmadan çalışmalısınız". Konfransda Azərbaycanın müxtəlif regionlarından olan orta məktəb şagirdləri,  orta məktəb direktorları, elmi rəhbərlər çıxış ediblər. Konfransda Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar  Bağça-Məktəb-Lisey Kompleksinin direktoru Aqşin Bağırov, Cəbrayıl rayon Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev, Ağdam rayonu 47 nömrəli tam orta məktəbinin direktoru Zülfiyyə Zeynalova, Füzuli rayon 56 nömrəli tam orta məktəbin direktoru Nərgiz Familzadə, İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın direktoru Səadət Cahandarova,  Nizami rayonu Kamil Əliyev adına 61 №-li tam orta məktəbin direktoru Zenfira Şıxəliyeva, Şamaxı rayon Sabir qəsəbə Alxan Alxanov adına orta məktəbin və 2 Nömrəli Texniki Humanitar Liseyin nümayəndələri təbrik nitqi ilə çıxış ediblər.

İlk dəfə olaraq ADU-nun tələbələri  konfransda iştirak edən, məruzə ilə çıxış edən şagirdlərin elmi rəhbəri olublar.

Qeyd olunub ki, konfransın təşkil olunması gənc tədqiqatçıların elmi-nəzəri və təcrübi imkanlarını artırmış olacaq.

ADU-nun Elmi işlər üzrə prorektoru Novruz Məmmədov, Tədris işləri üzrə prorektor Sevinc Zeynalova, Təhsil-1 fakültəsinin dekanı Fikrət Cahangirov, Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin dekanı İbrahim Kazımbəyli, Əlavə təhsil fakültəsinin dekanı Məmməd İsmayılov, Filologiya fakültəsinin dekanı Şahin Xəlilli, TEC elmi rəhbəri Lamiyyə Namazova konfrans iştirakçılarını təbrik edib, onlara uğurlar arzu ediblər.

Konfrans bölmə iclasları ilə davam edib. Konfransın bağlanış mərasimində çıxış edən ADU-nun rektoru, akademik Kamal Abdulla konfransın işini yüksək qiymətləndirib. ADU-nun Filologiya fakültəsinin dekanı, professor Şahin Xəlilli bölmə iclasları haqqında məlumat verib. ADU-nun BM və Regionşünaslıq fakültəsinin dekanı, professor İbrahim Kazımbəyli, Beynəlxalq münasibətlər kafedrasının müdiri professor Aida Yusifzadə, TEC elmi rəhbəri Lamiyyə Namazova, Beynəlxalq əlaqələr üzrə prorektor, professor Jalə Qəribova konfransın işini yüksək qiymətləndiriblər. İştirakçılara sertifikatlar və hədiyyələr təqdim edilib. Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Bağça-Məktəb-Lisey Kompleksinin direktoru Aqşin Bağırova təşkilatçılığa və yaradılan şəraitə görə ADU rəhbərliyinə və kollektivinə öz təşəkkürünü bildirib.

*Sonda ADU və  Ağdam rayonu 47 nömrəli tam orta məktəb, Cəbrayıl rayon Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəb, Bakı şəhəri Nizami rayonu Kamil Əliyev adına 61 nömrəli tam orta məktəb, Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar  Bağça-Məktəb-Lisey Kompleksi, İlyas Əfəndiyev adına Elitar Gimnaziya, Füzuli rayon 56 nömrəli tam orta məktəb, Şamaxı rayon Sabir qəsəbə Alxan Alxanov adına orta məktəb, 2 nömrəli Texniki Humanitar Lisey  arasında əməkdaşlıq memorandumu imzalanıb.*

Təsisçi və baş redaktor:  Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor:  Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində  qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks:  AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 1107







# Ənənə dəyişmədi, dənizə atıldı

## Bodrum sakinləri Fedonun bu hərəkətini səbirsizliklə gözləyirdi

**Bodrum sahillərində mövcud olan ənənə bu il də pozulmayıb və çimərlik mövsümü 77 yaşlı ifaçı Fedonun dənizə baş vurmasıyla açıq elan edilib.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, ifaçı dənizə atıldığı anların əks olunduğu videonu sosial media hesabında paylaşaraq belə mesaj yazıb: "Və Fedon dənizə düşdü. Fedonun izləyiciləri isə "indi iş tamamdır", "Yaz mövsümü rəsmi olaraq açılmışdır", rəyləri yazıb. 77 yaşlı ifaçı Bodrumun Torba məhəlləsində yaşayır. O, daha çox meyxana musiqisi ifaçılığıyla tanınır. Fedon Kalyonçunun hər il Bodrumda çimərlik mövsümünü dənizə atılaraq açması ənənə halını alıb. Bodrum sakinləri Fedonun dənizə nə zaman atılacağını gözləyir və bununla da yay mövsümünün başlanmasını qeyd edirlər. İfaçının səhhətində 4 il əvvəl problem yaranıb. Böyrəyində şiş aşkarlanıb. Müsahibələrinin birində ifaçı deyib ki, həyatda baş verə biləcək hər bir hadisəyə hazır olmaq lazımdır: "Xəstəliklər artacağı yaşdayam. Köhnə avtomobilin əvvəlcə kapotu çürüyür, sonra motoru yağ axıdır Bunları bilən və gözləyən insanam. Yaşlanmışam, xəstəliklər də gəlir. Mübarizə aparıram. Direşirəm. Xərçəngə tutuldum, böyrəyimin yarısı getdi Ölümdən qorxmuram. Tək istəyim budur ki, həyatda sürünməyim, başqa arzum yoxdur. Ölüm Allahın əmridir. Xəstə ola-ola mənim kimi xoş güzəran keçirən, işləyən, çalışan biri yoxdur. İmkanım nəyə çatırsa, günümü xoş keçirməyə çalışıram. Geyinib-bəzənib gəzməyə çıxıram. Amma əvvəlki kimi deyiləm, yoruldum artıq". 77 yaşlı ifaçının oğlu Teo ilə paylaşımı isə izləyiciləri heyrətləndirib. Şəkildə Fedon oğlundan çox da fərqlənmir. İzləyicilər də "Bunlardan hansı ata, hansı oğuldur? Ayıra bilmədik" mesajını yazıblar.

**Məlahət Rzayeva**



## Timsah balıqçını uddu

**Avstraliyada 65 yaşlı balıqçının həyatı facia ilə sonuclanıb. Dostları ilə balıq ovuna gedən Kevin Darmodi timsaha yem olub.**

"NTV.com.tr" xəbər verir ki, hadisə Avstraliyanın Şimali Queensland ərazisində baş verib. Bu ərazidəki Kennedys Bend bölgəsi duzlu su timsahlarının məskəni olaraq da bilinir. Balıqçını sonuncu dəfə məhz bu bölgədə balıq ovlayan görüblər. Balıqçı evinə dönməyincə itkin düşdüyü zənn edilib və axtarışlara başlanılıb. Balıqçının timsahlara yem olmasından şübhələnən bölgə polisi 2 nəhəng timsahı öldürüb. Timsahların qarnında insan cəsədi qalıqları aşkarlanıb. Cəsəd qalıqları ekspertizaya göndərilib. Ekspertizanın rəyi hələ açıqlanmasa da, bölgə əhalisi 65 yaşlı balıqçının məhz timsahlara yem olduğuna inanır.

**Məlahət**

## Antalyada dəhşətli anlar!

### O, məhəllə sakinlərini bıçaqla hədələdi, 2 qadına kabus yaşatdı



**Antalyada əlindəki bıçaqla məhəllə sakinlərini hədələyən və 2 qadınla dava edən M.S. adlı qadın nəzarətə götürülüb.**

Hadisə axşam saatlarında Kanal məhəlləsi 4737 küçəsində baş verib. Psixoloji problemləri olduğu iddia edilən M.S. əlindəki bıçaqla bütün məhəllə sakinlərini hədələdikdən sonra küçənin ortasında 2 qadınla dava etməyə başlayıb. Hadisə ətrafdakıların və polisin müdaxiləsi ilə sakitləşdirilib, M.S. saxlanılıb. Kəpəz İlçe Təhlükəsizlik Müdirliyi qrupları M.S.-nin üzərindən tapılan bıçağı götürüblər. Bütün olaylar mobil telefonların kamerası ilə lentə alınıb.

Haqqında cinayət işi açılan M.S. daha sonra məhkəməyə sövq edilib.

Turan

## "ChatGPT" indi də ev axtaracaq



**Populyar daşınmaz əmlak bazarı olan "Zillow" "ChatGPT" funksiyasını işə salıb.**

**Trend-in məlumatına görə, bu yeni xüsusiyyət "ChatGPT" istifadəçilərinə süni intellektin köməyi ilə yer, qiymət və yataq otağının sayı meyarlarına uyğun olaraq ev axtarmağa imkan verir.**

**Funksiya hazırda seçilmiş sayda "ChatGPT" istifadəçiləri üçün əlçatandır və gələcəkdə onun əlçatanlığını genişləndirmək planlaşdırılır.**

**"Süni intellekt insanların məlumat axtarmaq tərzini dəyişir" - "Zillow" şirkətinin baş direktoru David Beitel deyib.**

## 10 ay həbs cəzası verilib

### Gülşən yenidən həbs edildi



**Türkiyəli müğənni Gülşənə 10 ay həbs cəzası verilib.**

**"Haberturk" xəbər verir ki, bu barədə İstanbul Cəza Məhkəməsi hökm çıxarıb.**

**Qeyd edək ki, konsertində imam hatip tərəfdarlarının ünvanına söylədiyi sözlərə görə məhkəmə qarşısına çıxarılan Gülşən ötən ilin avqust ayının 25-də həbs edilib, daha sonra sərbəst buraxılmışdı.**

**Müğənninin "xalqı kin və düşmənliyə təhrik və təhqir etmə" maddəsi ilə 1 ildən 3 ilə qədər həbsi istənilirdi.**

## Şeyma misirli sevgilisinə ərə getdi



**Türkiyəli fenomen Şeyma Subaşı misirli sevgilisi, iş adamı Mohammed Alsaloussiyə ərə gedib.**

**Şeymanın sosial şəbəkədə nikah şəhadətnaməsi ilə fotoları yayılıb.**

**Fenomon instaqram səhifəsində də soyadını Alsaloussi olaraq dəyişib.**

***Qeyd edək ki, Şeyma "TV8" kanalının sahibi Acun Ilıcalının keçmiş həyat yoldaşıdır. Onların bu evlilikdən bir qızı var.***



## Türkiyədə 2 min il əvvələ aid olan xəzinə tapılıb

**Türkiyənin şimal-qərbindəki İznik gölündə aparılan tədqiqatlar zamanı əsrlər boyu suyun altında qalan tarixi artefaktlardan ibarət xəzinə aşkarlanıb.**

Azərtac xarici KİV-lərə istinadla xəbər verir ki, bu il dünyaca məşhur tarixi şəhər olan və UNESCO-nun müvəqqəti İrs Siyahısına daxil edilən İznikin yeni siyahıya əlavə ediləcəyi gözlənilir.

Bu yaxınlarda İznik gölünün sahilində gəzintiyə çıxan cütlük qeyri-adi xəzinə ilə qarşılaşıb. "Arkeonews" nəşri yazır ki, bu, üzərində İsa peyğəmbərin təsviri və relyef yazıları olan 2 min illik sikkədir. Təsadüfi tapıntı yerli sakinlərin böyük marağına səbəb olub və sonradan həmin rayonda daha bir neçə qədim sikkə tapılıb. Ekspertlər hesab edirlər ki, sikkələrin mənbəyi nə vaxtsa İznik gölünün dibində olmuş və 2014-cü ildə suyun üzərinə qalxmış tarixi bazilikadır.

Sikkəni həyat yoldaşı və uşaqları ilə gölün sahilində gəzintiyə çıxan İsmayıl Yıldırım adlı sakin tapıb və onun tarixi əhəmiyyətə malik olduğunu başa düşərək dərhal İznik Arxeologiya Muzeyinə təhvil verib. Ekspertizadan sonra muzeyin əməkdaşları sikkələrdən birinin ellinist dövrünə aid olduğunu təsdiq ediblər. Üzərində İsa peyğəmbərin təsviri olan sikkə isə IX əsrə aiddir.

İznik eramızdan əvvəl IV əsrdə salınmış və zəngin tarixə və mədəniyyətə malik olan şəhərdir. Bu yaşayış məskəni istər müsəlman, istərsə də xristian sivilizasiyalarının inkişafında mühüm rol oynayıb. Burada yunan, Roma, Səlcuklu və Osmanlı sivilizasiyalarına aid çoxlu sayda qədim abidələr var.

Qədim tarixçi Strabona görə, İznikin əsası eramızdan əvvəl 316-cı ildə Makedoniyalı İsgəndərin sərkərdəsi Antiqonos tərəfindən qoyulub. Sonralar İsgəndərin digər sərkərdəsi Lisimaxos şəhəri işğal edib və onu öz arvadı Nikeinin şərəfinə adlandırıb. Roma imperiyası dövründə İznik genişlənmə və tərəqqi dövrünü yaşayıb.

## Ronaldonun qızı əməliyyat olundu

**Portuqaliya millisinin və Səudiyyə Ərəbistanının "Əl Nəsr" klubunun futbolçusu Kriştianu Ronaldonun qızı Bella əməliyyat olunub.**

"Qafqazinfo" xəbər verir ki, əməliyyat Riyad şəhərində baş tutub.

Ulduz futbolçunun qızının niyə əməliyyat olunduğu bəlli deyil. Lakin onun son zamanlar səhhətində yaranan problemlərə görə tez-tez həkim nəzarətində olduğu bildirilib.

Qeyd edək ki, Bella Ronaldonun Corcina Rodrigezlə birlikdəliyindən olan qızıdır.



## Dünyanın ən yaxşı mətbəxləri açıqlanıb

**Hər mədəniyyətin öz ləzzətli təamları var. Harasa səyahət edərkən belə, sizi hansı yeməklərin gözlədiyi böyük əhəmiyyət kəsb edir.**

"CNN Travel" dünyanın dadları ilə seçilən ən yaxşı mətbəxlərini bir araya gətirib. Avropa və Asiya ölkələrinin başçılıq etdiyi siyahıda İtaliya birinci yerdədir. Budur dünyanın ən yaxşı mətbəxləri...

10. ABŞ
9. Meksika
8. Tayland
7. Yunanıstan
6. Hindistan
5. Yaponiya
4. İspaniya
3. Fransa
2. Çin
1. İtaliya



**Turan**

## 83 yaşlı qadın qarşısına məqsəd qoyub

### O, Paris Olimpiadasında birincilik əldə etmək istəyir



**83 yaşlı fransız qadın Paris Olimpiadasında birincilik əldə etməyi qarşısına məqsəd qoyub.**

"Şərq" "NTV.com.tr"yə istinadən xəbər verir ki, indiyədək xeyli mükafatlar, medallar qazanmış Barbara Humbert yaşının bu çağında da idmanın yüngül atletika növü ilə məşğul olur, qaçış marafonlarına qatılır. Qaçış həvəskarı olan Barbara Humbert idmanın sağlamlığın əsası olduğunu əyani sübut edir. Parisin yerli mediasına açıqlama verən Barbara Humbert idmana bağlılığıyla gənclərə örnək davranış sərgiləmək istədiyini deyib. Onu tanıyanlar da "83 yaşlı qadın əzmi və həyat enerjisiylə gənclərə nümunədir", deyirlər. Barbara Humbertin indilik ən böyük arzusu isə Paris Olimpiadasında iştirak edib olimpiya çempionu adını qazanmaqdır. Barbara Humbert yaşlı vaxtında idmandan nəinki əl çəkməyən, hətta qalib olan, medallar qazanan tək qadın deyil. Müxtəlif zamanlarda oxşar örnəklərə rast gəlinib. ABŞ-də 82 yaşlı Kristel Donli 100 metrlik məsafəni 21 saniyədə qət edərək rekorda imza atıb. 2017-ci ildə Luiziana ştatında keçirilmiş yarışda ikinci pilləni 92 yaşlı Meri Norkauer, üçüncülüyü isə 101 yaşlı Culiya Hokins qazanıblar. Onlardan əvvəlsə 101 yaşlı hindli qadın Beynəlxalq Veteranlar Oyunlarında 100 metrlik məsafəni 1 dəqiqə 14 saniyədə başa vurub. Yəni təkcə döyüşə "qocalar" getmirmiş, idmana da qocalar damğa vururmuş.

**Məlahət**